## 57 yaşlı müəllim imtahanda maksimum balı topladı



**Dünən müəllimlərin sertifikatlaşdırılması imtahanında iştirak edən 57 yaşlı müəllim maksimal - 60 bal toplayıb.**

Bununla bağlı Elm və Təhsil Nazirliyinin mətbuat katibi Cəsarət Valehov paylaşım edib.

Qeyd edək ki, test imtahanı mərhələsində 120 dəqiqə müddətində tədris olunan fənn üzrə ümumtəhsil proqramları, tədris metodikası və təlim strategiyalarına aid 60 sual təqdim edilir. Hər düzgün cavab 1 balla qiymətləndirilir.

Test imtahanında azı 30 bal toplamış təhsilverənlər müsahibə mərhələsinə keçmək hüququ qazanırlar.

## Bakıda azyaşlıya qeyri-etik hərəkətlər edən tutuldu





**Paytaxtın Binəqədi rayonunda naməlum şəxsin azyaşlıya qarşı qeyri-etik hərəkətləri ilə bağlı sosial şəbəkələrdə yayılan görüntülər araşdırılıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, polis əməkdaşları tərəfindən keçirilən tədbirlərlə 32 yaşlı Amid Nəbiyev saxlanılıb.

Araşdırma aparılır.

Onun əməlindən zərərçəkən başqa şəxslər varsa, polisə məlumat verməli tövsiyə olunur.


№ 107 (5868) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 21 iyun 2023-cü il (çərşənbə)




## Azərbaycanda həkimlərə firma dərmanları yazmaq qadağan olunur

**Azərbaycanda həkimlərin kommersiya məqsədli dərmanları reseptə yazması qadağan olunacaq.**

Bu barədə səhiyyə nazirinin müavini Rasim İsmayılov Milli Məclisin Səhiyyə komitəsinin iclasında məlumat verib.

"Hesab edirəm ki, elektron reseptlə bir çox nöqsanlar aradan qalxacaq. Qeydiyyatsız heç bir dərman vasitəsinə resept yazılmayacaq. Hətta həkim istəsə belə kommersiya məqsədli dərmanları reseptə yaza bilməyəcək. Eyni zamanda dərman vasitələri ilə bağlı qiymət fərqi kəskin olan siyahıda qida əlavələri üstünlük təşkil etmir. Sadəcə, həmin əlavələr dərman siyahısında verilir".



## Ermənistanla normallaşma prosesi üçün perspektivlər açılıb

### Nazir ölkəmizin regional əməkdaşlığın genişləndirilməsi üçün təşəbbüslər irəli sürdüyünü bildirib

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil edilmiş Xəzər Bağlantı Konfransında çıxış edib. Nazir Ceyhun Bayramov çıxışında müstəsna coğrafi mövqeyi olan Xəzər regionunun yaratdığı əvəzedilməz imkanlardan danışıb.

(səh.2)

## Əcnəbilər siyasi partiyaya üzv ola bilməz

### Siyasi təşkilatlar qanunsuz ianələrə görə də cərimələnəcək



**Siyasi partiyaların dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə görə cərimələr müəyyənləşib.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə görə fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

(səh.3)

# Paşinyan bütün gizlinləri açıqladı

### Ermənistan Baş naziri müharibə zamanı Putinlə 60 dəfə telefonla danışıb





"Bu rəqəmin özü göstərir ki, Rusiya Prezidenti Azərbaycan Ordusunun uğurla irəliləməsinin qarşısını almağa çalışıb"

**Ermənistan Baş naziri Nikol Paşinyan 44 günlük müharibənin şəraitini araşdıran İstintaq komissiyasının iclasında sensasiyalı açıqlamalar verib.**

Baş nazir bildirib ki, Ermənistan, Rusiya və Azərbaycan liderlərinin üçtərəfli bəyanatı üzrə son danışıqlar 2020-ci il noyabrın 6-da başlayıb. Paşinyanın sözlərinə görə, o, bəyanatı imzalamağa razılaşıb, lakin bir şərtlə ki, orada Şuşa və Ermənistan ərazisindən keçən ekstraterritorial dəhlizlə bağlı müddəalar olmasın...

(səh.3)

# Qəfil ölümlərin peyvəndlə əlaqəsi sübut olunmayıb

### Ürək-damar xəstəliklərinin əsas səbəbi hərəkətsizlik, oturaq həyat tərzi, trans yağlardan və şirniyyatlardan çox istifadədir



**Bugünkü statistik reallıqlara baxanda nəinki ölkəmizdə, eləcə də dünyada ürək-damar sistemi xəstəliklərinin sayında xüsusi artım yoxdur.**

*Bunu ürək-damar cərrahı, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Rəşad Mahmudov deyib.* O bildirib ki, ürək-damar xəstəlikləri say baxımından həmişə dünyada birinci yerdə olub, bu gün də elədir və ani ölümlərin bir nömrəli səbəblərindəndir...

(səh.4)



## Avtobuslarda bank kartları ilə ödəniş mümkün olacaq

### Hazırda bu istiqamətdə iş aparılır

**Bakıda avtobuslarda bank kartları vasitəsilə ödəniş etmək mümkün olacaq.**

Bunu "K Group" MMC-nin ("BakiKart"ın operatoru) direktoru Orxan Bayramov avtobuslarda nağdsız ödənişlər üçün yeni mobil tətbiqin təqdimatı ilə bağlı keçirilən tədbirdə bildirib.

Onun sözlərinə görə, hazırda bu istiqamətdə iş aparılır.

"Bu ilin sonuna kimi "BakıKart"ın aktiv olduğu marşrutlarda bu funksiya aktiv fəaliyyət göstərəcək".

## Abşeronda kişi arvadını öldürüb

### 8 aylıq qızına və özünə isə xəsarət yetirib



**Abşeronda 20 yaşlı qadın öldürülüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, iyunun 20-də saat 19 radələrində Abşeron rayonu Qobu qəsəbəsində 2003-cü il təvəllüdlü Hüseyinli Leyla Əlişan qızının kəsilmiş-deşilmiş xəsarətlərdən ölməsi və 8 aylıq qızının da xəsarət alması ilə bağlı barədə polisə məlumat daxil olub.

Cinayət əməlini törətməkdə şübhəli bilinən qadının həyat yoldaşı, 1993-cü il təvəllüdlü Hüseyinli Fərid Firdövsü oğlu daha sonra kəsici alətlə özünə xəsarət yetirib.

8 aylıq körpə və atası xəstəxanaya yerləşdirilib.

## Buzovnada 2 nəfər dənizdə batıb



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi yaxınlığında dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 2 km aralı, nəzarətsiz ərazi) 2 nəfərin batması barədə məlumat daxil olub.**

FHN-dən verilən məlumata görə, FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Zuğulba" dalğıc-axtarış qrupunun dalğıc-xilasedicilərı axtarışlara cəlb olunub.



## Azərbaycanda dəniz nəqliyyatı gündəmə gətirilməlidir

### Bakıətrafı qəsəbələrə, kəndlərə dəniz nəqliyyatının təşkili şəhərdə tıxacların aradan qaldırılmasına çox böyük kömək edər

(səh.3)



## Arazdəyəndə ABŞ bayrağının qaldırılması təxribatdır

### Gözləyirlər ki, Azərbaycan tərəfi bu hadisəyə qarşı hər hansı bir məcburi addım atsın, onlar da dünyaya servis etsinlər

(səh.4)



# Ermənistanla normallaşma prosesi üçün perspektivlər açılıb

## Nazir ölkəmizin regional əməkdaşlığın genişləndirilməsi üçün təşəbbüslər irəli sürdüyünü bildirib

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində Xəzər Siyasət Mərkəzi tərəfindən təşkil edilmiş Xəzər Bağlantı Konfransında çıxış edib. Nazir Ceyhun Bayramov çıxışında müstəsna coğrafi mövqeyi olan Xəzər regionunun yaratdığı əvəzedilməz imkanlardan danışıb.**

Bu gün Mərkəzi Asiyadan, Xəzər dənizindən və daha sonra Qafqazdan keçən nəqliyyat marşrutlarının əhəmiyyətinin daha da artdığını vurğulayıb: ”Azərbaycan nəqliyyat infrastrukturunun şaxələndirilməsinə və modernləşdirilməsinə diqqət yetirir. Avropa ilə Asiya arasında ticarət və logistikanı gücləndirmək üçün bir sıra nəqliyyat infrastrukturu layihələri təşviq olunur”. Ceyhun Bayramov həmçinin Azərbaycanın Bakı-Tbilisi-Qars dəmir yolu və Trans-Qafqaz fiber-optik kabel layihəsi kimi bir sıra digər regional əlaqələndirmə layihələrinin reallaşdırılmasında fəal təşəbbüskar və etibarlı tərəfdaş olduğunu diqqətə çatdırıb. Nazir ümumilikdə 2022-ci il ərzində Azərbaycan üzərindən tranzitin 75 faiz artdığını bildirərək bütün kommunikasiyaların açılmasının regionumuzda davamlı sülh və sabitliyə daha da töhfə verəcəyinə, ticarət və nəqliyyatı əhəmiyyətli dərəcədə artıracağına əminliyini ifadə edib: ”Bu mənada ön plana çıxan təşəbbüs və Orta Dəhliz daxilində əlaqəni daha da artırmaq potensialına malik Zəngəzur dəhlizidir. Aparılan səylərə baxmayaraq, Ermənistan tərəfindən kommunikasiyaların açılmasına çətinlik törədilir”. Nazir Ermənistanla bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət əsasında normallaşma prosesi üçün perspektivlər açıldığını bildirib. Bununla yanaşı C.Bayramov Azərbaycanın regionun daha təhlükəsiz və firavan gələcəyinin qurulmasına töhfə verən inkişaf yolu ilə irəliləməyə davam etmək əzmində olduğunu, regiondan və ondan kənarda olan investorlarla əməkdaşlıqda marağını qeyd edib: ”Bütün tərəfdaşlar Azərbaycanın münaqişədən sonrakı yenidənqurma və reabilitasiya səylərini dəstəkləməyə dəvət edilib”. Nazir ölkəmizin bir sıra ölkələrlə regional əməkdaşlığın genişləndirilməsi üçün təşəbbüslər irəli sürdüyünü bildirib: ”Türkiyə, Qazaxıstan və Özbəkistanla sıx əməkdaşlıqda üçtərəfli formatlar çərçivəsində önəmli işlər görülüb, mühüm sənədlər imzalanıb”.

Çıxışda həmçinin Aİ və Azərbaycan arasında “yaşıl enerji” sahəsində əməkdaşlıqdan bəhs olunaraq, Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan Qara dəniz sualtı kabel layihəsinin işə salınmasının regional enerji xəritəsini yenidən müəyyənləşdirəcəyinə və iştirakçı dövlətlərdə enerji sahəsində keçidi sürətləndirəcəyinə əminlik ifadə olunub. Azərbaycanın Xəzər dənizinin öz hissəsində böyük dəniz külək potensialından, bu xüsusda elektrik enerjisinin Avropaya potensial ixrac yollarından, Asiya ilə Avropa arasında yeni əlaqə marşrutu yaratmaq məqsədi daşıyan rəqəmsal dəhliz olan “Rəqəmsal İpək Yolu”nun yaradılmasını nəzərdə tutan “Azerbaijan Digital Hub” layihəsindən söz açılıb. Tədbir zamanı, nazir Ceyhun Bayramov iştirakçıların suallarını cavablandırıb.

**İsmayıl**

# Azərbaycanda dərmanların qiyməti çox yüksəkdir

## Deputatlar da narazıdır, Tarif Şurası qiymətləri tənzimləyərkən bunu nəzərə almalıdır



**”Antibiotiklərin satılması reseptlə olmalıdır. Amma buna riayət olunmur”. Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov komitənin dünənki iclasında deyib. O bildirib ki, heç bir xarici ölkədə reseptsiz antibiotik almaq mümkün deyil:**

”Bizdə də bununla bağlı qanun var və buna ciddi riayət olunmalıdır. Antibiotiklərin reseptsiz istifadəsi ciddi nəticələrə, ağırlaşmalara gətirib çıxarır. Xüsusən uşaqlara həkim məsləhəti olmadan antibiotiklərin verilməsinin ağır fəsadları olur. Hesab edirəm ki, səhiyyə qurumları bununla ciddi məşğul olmalıdırlar”. Komitə sədri həmçinin bildirib ki, dərman vasitələrinin sertifikatlaşdırılması və dövlət qeydiyyatına alınması prosedurunun sadələşdirilməsi keyfiyyətə təsir etməməlidir.

Əhliman Əmiraslanov deyib ki, Azərbaycanda dərmanların qiyməti çox yüksəkdir. O bildirib ki, bunu yoxlamaq çox asandır və müxtəlif ölkələrə nəzər yetirmək kifayətdir: ”Tarif Şurası qiymətləri tənzimləyərkən bunu nəzərə almalıdır. Qiymətlər optimallaşdırılmalıdır”.

**“Dərmanlar ƏDV-dən azad olunsun!”**

Deputat İlham Məmmədov bildirib ki, xaricdən dərmanların idxalı zamanı ƏDV aradan qaldırılsa, daha yaxşı olar: ”Sahibkarlarla görüş zamanı onlar narahatlıqlarını dilə gətirirlər. 100 manatlıq dərmana 18 manat ƏDV ödənilir. Bununla da dərman bazara çıxmamış qiyməti 118 manat olur. Bu da qiymətlərin bahalaşmasına gətirib çıxarır. Ona görə də xaricdən idxal edilən dərmanlar ƏDV-dən azad olunmalıdır”.

**“Dərman qiymətlərinin aşağı həddinin müəyyən edilməsi məqsədəuyğun deyil”**

Səhiyyə nazirinin müavini Rasim İsmayılov deyib ki, dərman qiymətlərinin aşağı həddinin müəyyən edilməsi məqsədəuyğun hesab olunmur. O bildirib ki, bunun bazar qaydalarına uyğun olmadığını düşünürlər. Qeyd edək ki, deputat dərmanların yuxarı həddinin müəyyən edilib, aşağı həddinin müəyyən olunmamasının bazarda rəqabəti poza biləcəyi fikrini irəli sürüb.

**Nazir müavini dərmanların qiymətinin baha olmasının səbəblərini açıqlayıb**

**Rasim İsmayılov bildirib ki, Türkiyə ilə qiymətləri müqayisə etsək, Türkiyənin 70-80 faizdən çoxu daxili istehsaldır:** ”Bu gün Türkiyədə 1 avro 24-26 TL olursa, dərman qiymətlərinin tənzimlənməsində 1 avro 14-15 TL götürülür. Yəni qiymətlərin 50 faizdən çoxu dövlət dotasiyası ilə tənzimlənir. İki gün öncə idxalçılarla görüşümüz olub. Onların ölkə səhiyyəsinin inkişafı üçün kifayət qədər ciddi fikirləri var. Əsas gətirirlər ki, bu gün ölkədə qiymətlərin uyğun olmamasının əsas səbəbi istinad ölkələrin siyahısında Türkiyənin götürülməsidir. Bu baxımdan istinad ölkələrə yenidən baxılması nəzərdə tutulub. Ümumiyyətlə, Tarif Şurası tərəfindən qiymətlərin tənzimlənməməsi müzakirə mövzusu deyil. Əgər idxalçılar bilsələr ki, qiymətlər Tarif Şurası tərəfindən təsdiqlənmir, o zaman bugünkü qiymətlərdən daha baha qiymətlər təklif edə bilərlər”.

**İsmayıl**

# "Şahdağ Turizm Mərkəzi" niyə zərərlə işləyib?

## Məlum arayış turizm mərkəzi tərəfindən təqdim edildiyindən şəffaflığa şübhə yaradır



**Dövlət Turizm Agentliyinə məxsus “Şahdağ Turizm Mərkəzi” QSC 2022-ci ili 8,688 milyon manat zərərlə başa vurub. ”Report” səhmdar cəmiyyətinin maliyyə hesabatına istinadən xəbər verir ki, bu, 2021-ci illə müqayisədə 37 faiz çoxdur. Son nəticədə dövlət şirkətinin yığılmış zərəri 9,8 faiz artaraq 97,177 milyon manata çatıb.**

Bu il yanvarın 1-nə ”Şahdağ Turizm Mərkəzi”nin aktivləri 302,204 milyon manat olub ki, bu da illik müqayisədə 3,1 faiz azdır. Hesabat dövründə səhmdar cəmiyyətinin öhdəlikləri 37,3 faiz azalaraq 1,874 milyon manata, balans kapitalı isə 2,8 faiz azalaraq 300,33 milyon manata düşüb. Xatırladılır ki, ”Şahdağ Turizm Mərkəzi” 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 397,507 milyon manatdır. Şahdağ milli parkının yaxınlığında salınmış kompleks Azərbaycanda ilk və ən böyük dağ-xizək kurortudur.

**“Şahdağ Turizm Mərkəzi”nin ziyanla işləməsinin səbəblərini müəyyən etməyə çalışan iqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında bir neçə amil göstərdi:**

- Əvvəla, yayımlanan məlumat turizm mərkəzinin gəlirlər, zərərlər barədə özünün təqdim etdiyi arayışdır. Gərək əlimizdə konkret audit sənədləri olsun ki, zərərin harada, necə yarandığını müəyyən edə bilək. Bunlar yoxdur və məlum arayış turizm mərkəzi tərəfindən təqdim edildiyindən şəffaflığa şübhə yaradır. Digər tərəfdən, ”Şahdağ”ın fəaliyyəti əsas qış ayları üçün nəzərdə tutulub. Bizdə isə qış çox qısa və hava şəraitindən asılıdır. Qış turizmi isə həm də bu şərtlərə bağlıdır. Digər səbəblər arasında əlbəttə ki, xidmətlərin bahalığı, quru sərhədlərinin hələ də bağlı saxlanması, qonşu Gürcüstanda, Rusiyada qış turizmi obyektlərinin, istirahət zonalarının güclü rəqabət mühiti yaratmasıdır. Yəni turist daha ucuz məkanları qoyub, niyə qiyməti baha olana getsin ki! Rəqabət mühitinin qeyri-elastik olması da qış turizminin inkişafını zəiflədir. Başqa bir səbəb idarəetmədəki səhvlər ola bilər. İdarəetmədə də elastiklik vacibdir. Əks halda ziyanın artması yenə müşahidə ediləcək.

**Məlahət Rzayeva**

# Azərbaycan XİN Paşinyana cavab verdi

## Ermənistanın sülh prosesinə maneçilik törətməkdən əl çəkməlidir



**20 iyun tarixində Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan Parlamentində çıxışı zamanı 44 günlük müharibə zamanı və ümumilikdə, işğal dövründə aparılmış bir sıra danışıqları təhrif etməklə yanaşı, bir daha göstərib ki, Ermənistan çağırışlara baxmayaraq, Azərbaycan ərazilərini danışıqlar yolu ilə işğaldan azad etməkdən imtina edib.**

*Bu barədə Xarici İşlər Nazirliyindən ”Şərq”ə verilən məlumatda bildirilib.*

Qeyd olunub ki, Ermənistan baş nazirinin müharibə zamanı hər bir danışıqdan və humanitar atəşkəsdən dərhal sonra müharibə zonasından kənar mülki əhalinin sıx yaşadığı Azərbaycan şəhərlərini raket atəşinə tutmasını və mülki əhalini qətlə yetirməsini danması Ermənistan tərəfinin faktları necə təhrif etdiyini bir daha nümayiş etdirir.

”Azərbaycanın guya 2011-ci ildən silahlanmanı və təxribatları artırmaqla vəziyyəti gərginləşdirdiyi barədə iddialara gəldikdə qeyd edək ki, Azərbaycan əraziləri işğal olunan andan etibarən BMT Təhlükəsizlik Şurasının və bir sıra digər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında danışıqlar yolu ilə ərazilərinin geri qaytarılmasına səy göstərib. Bütün bunlara baxmayaraq, Baş nazir Paşinyan tərəfindən şəxsən 2018-2019-cu illərdə nümayiş etdirilən təhrikçi ritorika da daxil olmaqla, uzun illər ərzində Ermənistan tərəfindən törədilən təcavüz aktının və təxribatların sülhə töhfə vermədiyi və 2020-ci ildə müharibə ilə nəticələndiyi hər kəsə məlumdur.

Ermənistan tərəfinin tarixi səhvlərindən dərs çıxarması və post-münaqişə dövründə sülh prosesinin uğurla nəticələnməsi işinə maneçilik törətmək səylərindən əl çəkməsi zəruridir”, - deyə vurğulanıb.

# Qərbi Azərbaycan məsələsinə beynəlxalq dəstək lazımdır

## Ondan sonra Ermənistan da dialoq qurmağa məcbur olacaq



**Qərbi Azərbaycan İcması Ümumdünya Qaçqınlar Günü ilə bağlı bəyanat yayıb. İcmanın bəyanatında vurğulanıb ki, Ermənistan hələ də barışıq çağırışlarına cavab verməyib. Bildirilib ki, Ermənistan tərəfinin məzmunlu dialoqda iştirak etməkdən yayınması ədalətli və davamlı həll istiqamətində irəliləyişə mane olur.**

Qərbi Azərbaycan İcması qarşılıqlı maraq doğuran məsələlər üzrə Ermənistan hökuməti ilə hər zaman birbaşa dialoqa hazır olduğunu açıqlayıb: ”Qayıdış prosesi və qayıtdıqdan sonra kollektiv və fərdi hüquqlarımız beynəlxalq mexanizm çərçivəsində təmin edilməlidir”. Bununla yanaşı, vurğulanıb ki, beynəlxalq ictimaiyyət tərəfindən insan hüquqlarına edilən vurğunun artması və Ermənistandan qovulmuş azərbaycanlıların evlərinə sarsılmaz qayıtmaq istəyi İcmanın qayıdış hüququ istiqamətində səylərini artırmağa ruhlandırır: ”Eyni zamanda qeyd etməliyik ki, insan hüquqlarına əsaslanan sözügedən məramımızın həyata keçirilməsi böyük ölçüdə beynəlxalq ictimaiyyətin siyasi və praktiki dəstəyindən asılıdır. Biz qayıdış hüququmuza dövlətlər və təşkilatlar tərəfindən verilən dəstəyi yüksək qiymətləndiririk”.

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov ”Şərq”ə deyib ki, Qərbi Azərbaycan mövzusu Azərbaycanın xarici siyasətində prioritet məsələyə çevrilib. Ekspertin fikrincə, məsələ hər zaman gündəmdə olsa da, 44 günlük müharibədən sonra daha aktif mərhələyə qədəm qoyub:** ”Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına geri qayıtması, indiki Ermənistan ərazisində tarixi Azərbaycan məskənlərinin və adlarının bərpası çox aktual məsələdir. Qərbi Azərbaycan İcması son aylarda bu istiqamətdə çox fəal işlər görməkdədir. İcma davamlı olaraq beynəlxalq təşkilatlara müraciətlər ünvanlayır. Sadəcə, ölkə daxilində deyil, xarici müstəvidə də ciddi fəaliyyət sərgiləyir. Amma Avropa qurumlarında, ATƏT-də, Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda daim iştirak edən bir hüquq müdafiəçisi kimi deyirəm ki, bu istiqamətdə daha genişmiqyaslı çalışmalar lazımdır. Hazırda AŞ PA-nın yaz sessiyası keçirilir. Çox istərdim ki, Qərbi Azərbaycan İcmasının nümayəndələri də bu mühüm toplantıda iştirak etsinlər. Həm özlərini tanıtsınlar, həm də fikirlərini, tələblərini dilə gətirsinlər. Belə platformalarda iştirak çox önəmli məsələdir. Təbii ki, hər addımı Azərbaycan dövlətindən və rəhbərliyindən gözləmək, görüləcək bütün işləri dövlətin öhdəsinə buraxmaq doğru yanaşma deyil. O baxımdan İcmadan daha güclü fəaliyyət gözləyirik. Əlbəttə, bizim üzərimizə düşən nədirsə, onu da tam həyata keçirməyə hazırıq. Qarabağ məsələsinə necə yanaşırdıqsa, Qərbi azərbaycanlıların öz torpaqlarına geri dönüş prosesinə də o cür baxmalıyıq”.

*Ə.Şahidov vurğulayıb ki, Ermənistanın İcmanın dialoq və görüş çağırışlarını cavabsız qoyması göstərir ki, İrəvan belə təmaslara hazır deyil:* ”Ermənistan dövləti və cəmiyyəti hələ də 44 günlük müharibənin şokundan ayılmayıb. Hələ də revanş və qisas düşüncəsi ilə yaşayanlar, bu istiqamətdə hərəkət edənlər var. Ona görə də Qərbi Azərbaycan məsələsinə aqressiv yanaşır, bunu özləri üçün ciddi ”təhlükə” kimi görürlər. Genişmiqyaslı fəaliyyətə və bir az da zamana ehtiyac var. İlk növbədə erməni cəmiyyətini razı salmalı, ya da məcbur etməliyik. Beynəlxalq qurumlar və media ilə düzgün iş siyasəti qurulmalıdır. Mümkün qədər İrəvana təzyiq göstərilməsinə də nail olmalıyıq. Azərbaycanlıların haqlı mövqeyinə böyük beynəlxalq dəstək qazanmaq lazımdır. Ondan sonra Ermənistan da dialoq qurmağa məcbur olacaq”.

**İsmayıl Qocayev**

# Laçın postuna zirehli texnikalar yeridilib



**Xəbər verdiyimiz kimi, iyunun 15-i saat 08 radələrində Ermənistan Respublikasının Silahlı Qüvvələri terror-təxribat-provakasiya əməllərini növbəti dəfə davam etdirməklə müxtəlif çaplı odlu silahlardan Azərbaycan Respublikasının suveren ərazisi olan Laçın-Xankəndi avtomobil yolunun başlanğıcında yerləşən ”Laçın” Sərhəd Nəzarəti məntəqəsinə dislokasiya olunub və ərazidə xidmət göstərən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına atəşlər açmışdı.**

Nəticədə 1 nəfər hərbi qulluqçu, gizir Elşən Rüstəmov güllə yarası xəsarətləri almışdı. Bundan dərhal sonra DSX cavab tədbirləri görüb. ”Laçın” sərhəd-keçid məntəqəsi insidentin araşdırılması, günahkarların tapılmasına qədər bağlanıb.

Musavat.com xəbər verir ki, dünən ”Laçın” Sərhəd Nəzarəti məntəqəsinə zirehli texnikalar yığılıb.

Bununla bağlı fotogörütülər sosial şəbəkələrdə yayılıb.

# Paşinyan bütün gizlinləri açıqladı

## Ermənistan Baş naziri müharibə zamanı Putinlə 60 dəfə telefonla danışıb

**Ermənistan Baş naziri Nikol Paşinyan 44 günlük müharibənin şəraitini araşdıran İstintaq komissiyasının iclasında sensasiyalı açıqlamalar verib. Baş nazir bildirib ki, Ermənistan, Rusiya və Azərbaycan liderlərinin üçtərəfli bəyanatı üzrə son danışıqlar 2020-ci il noyabrın 6-da başlayıb.**



Paşinyanın sözlərinə görə, o, bəyanatı imzalamağa razılaşıb, lakin bir şərtlə ki, orada Şuşa və Ermənistan ərazisindən keçən ekstraterritorial dəhlizlə bağlı müddəalar olmasın: "Bildirdim ki, erməni tərəfi Hadrut müqabilində Ağdamı təklif edir. Noyabrın 8-nə olan məlumata görə, hərbçilər şəhərin bir hissəsinin erməni tərəfinin nəzarətində olduğunu bildirsələr də, onu tamamilə geri qaytarmağın mümkünsüz olduğu aydın idi. Mən üçtərəfli bəyanatın mətnini noyabrın 9-da gecə yarısı deyil, səhər saatlarında imzaladım. Müharibənin dayandırılması ilə bağlı danışıqları Rusiya Prezidenti Vladimir Putin vasitəsilə aparmışam. Noyabrın 8-də və noyabrın 9-da onunla 20-yə yaxın telefon danışığım olub, bütün müharibə dövründə isə Putinlə 60-a yaxın telefon danışığım olub". Paşinyan vurğulayıb ki, sonda müzakirələr nəticəsində hərbi əməliyyatların dayandırılmasına, 7 rayonun qaytarılmasına razılıq verib: "Laçın "dəhlizi"nin açılması və orada rus sülhməramlılarının yerləşdirilməsi qərara alındı. Prosesin kulminasiya nöqtəsi noyabrın 9-da axşam oldu, o zaman məlum oldu ki, Azərbaycan praktik olaraq razılaşdırılmış mətnə yeni əlavələr təklif edir. İmzalanmış mətn dövriyyədən çıxdı, sonra yenidən danışıqlar başladı. Bu anda Rusiya Federasiyasının prezidenti dedi ki, Azərbaycan mətnə Tovuz anklavlarının qaytarılması ilə bağlı bəndin əlavə edilməsini təklif edir. Sonda uzun və mürəkkəb müzakirələrdən sonra hamıya məlum olan sənədi imzaladım".

Paşinyan vurğulayıb ki, 9 noyabr bəyanatı müharibəni dayandırmaq üçün beşinci cəhdi idi: "İlk belə danışıq oktyabrın 7-də Putinin doğum gününü təbrik etmək üçün zəng vuranda oldu. Müsahibələrin birində demişdim ki, Ermənistan güzəştə getməyə hazırdır və o da bu fürsətdən istifadə edərək tezliklə atəşkəs üçün vasitəçilik səyləri göstərmək istədiyini dedi. Mövqeyimiz ondan ibarət idi ki, ilkin şərt qoyulmadan atəş dayandırılmalı, tərəflər öz mövqelərində qalmalı, bundan sonra tərəflərin hansı kompromislərə hazır olması ilə bağlı məsləhətləşmələr başlamalıdır. Dedim ki, bu variant bizim üçün məqbuldur. Rusiya Prezidenti ilə ikinci telefon danışığım elə həmin gün axşam saatlarında oldu. O, Azərbaycan Prezidenti ilə danışdığını, lakin İlham Əliyevin atəşkəslə razılaşmağa hazır olmadığını bildirib. Ertəsi gün Rusiya Prezidenti mənə bildirdi ki, Azərbaycanın atəşkəs üçün ilkin şərtləri var. Azərbaycan Füzulinin döyüşsüz verilməsini, erməni qüvvələrinin Araz boyu Xudafərin su anbarından çəkilməsini və suvarma işləri üçün su anbarının Azərbaycanın nəzarətində qalmasını istəyirdi. Bundan başqa, Azərbaycan rəhbərliyinin Şahbaz Quliyev və Dilqəm Əsgərovun geri qaytarılması da daxil, şərtləri vardı".

"Bu rəqəmin özü göstərir ki, Rusiya Prezidenti Azərbaycan Ordusunun uğurla irəliləməsinin qarşısını almağa çalışıb"

**Paşinyan Şuşa döyüşlərindən də danışıb:** "Şuşa ciddi əhəmiyyət kəsb edirdi və Şuşanın müdafiəsinin möhkəmləndirilməsi, təşkili ilə bağlı idi. Xəbər gəldi ki, bir qrup azərbaycanlı hərbçi Zarıslı kəndi ərazisində müdafiəmizi yararaq, Laçın-Xankəndi yolunu kəsib. Yəni faktiki olaraq Şuşa yolu bağlandı. Bu xəbəri mənə Qarabağın "prezidenti" çatdırdı, lakin Silahlı Qüvvələrin Baş Qərargahı bu məlumatı təsdiqləmədi. Yeri gəlmişkən, bu, müharibə illərində təxminən on dəfə təkrarlanan vəziyyət idi, Arutyunyan xəbər verəndə baş katib xəbəri təsdiqləmədi, hətta təkzib etdi və bir müddət sonra etiraf etməli oldu ki, Arutyunyan düz deyirdi. Mahiyyət etibarı ilə Şuşanın tənəzzülü də bu andan başladı".

Ermənistan Baş naziri deyib ki, Şuşanın itirilməsi 10 noyabr 2020-ci il tarixli bəyanatın imzalanmasının əsas səbəblərindən biri olub: "Niyə mən noyabrın 10-da Üçtərəfli bəyanatı imzaladım? Burada, təbii ki, Şuşanın itirilməsi dönüş nöqtəsi oldu. Şəhərin təkcə simvolik mənası deyil, həm də strateji əhəmiyyəti var idi. Şuşadan sonra Xankəndi hücuma məruz qalacaqdı. Ən əsası isə 25 minə yaxın əsgər mühasirəyə düşə bilərdi". Baş nazir bildirib ki, əgər Şuşa əhalisinin 90 faizi azərbaycanlıdırsa, onu "erməni şəhəri" adlandırmaq çətindir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Ermənistanın Baş naziri Nikol Paşinyanın müharibə zamanı Rusiya Prezidenti Vladimir Putinlə 60 dəfə telefonla danışığına diqqət çəkib. Bildirib ki, bir sıra hallarda danışıqların təşəbbüskarı Kreml sahibi olub:** "Bu rəqəmin özü göstərir ki, Rusiya Prezidenti Azərbaycan Ordusunun uğurla irəliləməsinin qarşısını almağa çalışıb. Qarabağda separatizm ocağının tam ortadan qaldırılmaması üçün Nikol Paşinyana təsir etməyə çalışıb ki, Azərbaycanın ilkin şərtlərini qəbul etsin. Putinin bu telefon danışıqlarında digər məqsədi nə yolla olur-olsun bölgədə "sülhpərvər" adı ilə Rusiya ordusunu yerləşdirmək olub. Putin Cənubi Qafqazda müharibəni həm də ona görə dayandırmağa çalışıb ki, başqa dövlətlər Rusiyanı bölgədən sıxışdırmağa nail olmasınlar. Putin birinci məqsədinə nail olur, Qarabağ separatçıları ağır zərbələr alsa da, varlıqlarını tam itirmədilər. Putin ikinci məqsədinə də nail olur, Rusiya hərbçiləri bölgədə yerləşdirilir. Putin üçüncü məqsədinə nail olmur. Başda Türkiyə olmaqla Avropa İttifaqı və ABŞ Cənubi Qafqazda varlıqlarını göstərirlər. Biz 2 ildən sonra Rusiya hərbi kontingentini bölgədən çıxarmaqla, o cümlədən separatçıların tərksilahına nail olmaqla və Qarabağın tamamına nəzarəti ələ keçirməklə Kreml sahibinin müharibə dönəmində əldə etdiyi hər iki uğuru heçə endirməliyik".

**Elxan Şahinoğlu əlavə edib ki, Paşinyan müharibənin başlamasına və danışıqlardakı zəif mövqeyə görə Ermənistanın özündən əvvəlki bütün liderlərini tənqid edib. Hətta keçmiş müəllimi Levon Ter-Petrosyanın bostanına da daş atıb:** "Paşinyan keçmiş prezident Robert Koçaryanı onda ittiham edib ki, o, danışıqlardan Qarabağ separatçılarının təmsilçilərini uzaqlaşdırmışdı. Halbuki münaqişə başlayandan bu yana danışıqlar İrəvanla aparılırdı. Paşinyan Koçaryandan sonrakı Prezident Serj Sarkisyanı isə onda ittiham edib ki, o, 2016-cı il aprel savaşını şifahi razılaşma ilə bitirib və Azərbaycan Ordusunu yeni müharibəyə hazırlaşmağa şərait yaradıb. Nikol Paşinyanın özündən əvvəlki liderləri tənqid etməsində müəyyən məntiq var. İşğalı həyata keçirənlər və danışıqları uzadanlar onlar olub. Ancaq İkinci Qarabağ müharibəsini tezləşdirən Paşinyanın Şuşada içkili şəkildə yallı oynaması, "Qarabağ Ermənistandır" deməsi və ozamankı müdafiə nazirinin "Ermənistan yeni ərazilər uğrunda müharibəyə başlaya bilər" tipli açıqlamaları oldu".

**İsmayıl Qocayev**



# Əcnəbilər siyasi partiyaya üzv ola bilməz

## Siyasi təşkilatlar qanunsuz ianələrə görə də cərimələnəcək

**Siyasi partiyaların dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə görə cərimələr müəyyənləşib. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında keçirilən iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, siyasi partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə görə fiziki şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək. "Siyasi partiyalar haqqında" qanunu müəyyən edilmiş hərəkətlər istisna olmaqla, siyasi partiyanın fəaliyyətinin dayandırdığı dövrdə və ya ləğvinin dövlət qeydiyyatına alındığı halda onun hər hansı formada fəaliyyət göstərməsinə görə fiziki şəxslər 700 manatdan 1000 manatadək məbləğdə, vəzifəli şəxslər 1500 manatdan 2 min manatadək məbləğdə, hüquqi şəxslər isə 6 min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir. Qeyd edək ki, qüvvədə olan qanuna görə, ləğv edilmiş siyasi partiyanın adından çıxış etməyə və ya fəaliyyət göstərməyə görə fiziki şəxslər yeddi yüz əlli manatdan min beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

"İnzibati Xətalar Məcəlləsi"nə təklif edilən dəyişikliyə əsasən, siyasi partiya tərəfindən siyasi partiyanın üzvü və ya digər şəxsdən il ərzində qanunla müəyyən edilmiş məbləğdən artıq qəbul edilmiş üzvlük haqqı və ya ianə müsadirə ediləcək. Onun məbləğinin 80 faizindən 100 faizinədək məbləğdə cərimə ediləcək. Həmçinin ianəni həmin qanunla müəyyən edilmiş müddətdə geri qaytarmamasına görə inzibati xətanın bilavasitə obyekti olmuş ianə məbləğinin altmış faizindən səksən faizinədək məbləğdə cərimə ediləcək. Eyni zamanda ianələrin məbləği və maddi yardımlar barədə məlumatları Mərkəzi Seçki Komissiyasına təqdim etməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim etməməsinə görə vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə olunacaq.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə görə, əcnəbilərin siyasi partiyaya üzv qəbul edilməsinə görə cərimə tətbiq olunacaq. Layihəyə əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin siyasi partiyaya üzv qəbul edilməsinə görə vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə ediləcək. Siyasi partiyanın Azərbaycandan kənarda istənilən növ hesab açmasına görə cərimə tətbiq ediləcək. Layihəyə əsasən, siyasi partiyanın Azərbaycan Respublikasının hüdudlarından kənarda istənilən növ hesab açmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə ediləcək.

Siyasi partiyalar digər ölkələrin siyasi partiyaları ilə saziş bağladıqdan sonra məlumat verməsə, cərimə tətbiq ediləcək. Layihəyə əsasən, siyasi partiyanın digər ölkələrin siyasi partiyaları ilə sazişin bağlanması və ya siyasi partiyaların beynəlxalq ittifaqlarına üzvlüyə daxil olması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana məlumat verməməsinə görə vəzifəli şəxslər 500 manatdan 700 manatadək məbləğdə, hüquqi şəxslər 1500 manatdan 2 min manatadək məbləğdə cərimə edilir.

**İsmayıl**

# Azərbaycanda dəniz nəqliyyatı gündəmə gətirilməlidir

## Bakıətrafı qəsəbələrə, kəndlərə dəniz nəqliyyatının təşkili şəhərdə tıxacların aradan qaldırılmasına çox böyük kömək edər

**Azərbaycanda dəniz nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı artıb. Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, 2023-cü ilin yanvar-may aylarında dəniz nəqliyyatı ilə daşınan sərnişinlərin sayı 8,6 min nəfər olub.**



Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 26,5 faiz artım deməkdir. Qeyd olunan dövr ərzində dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi isə 3575,8 min ton təşkil edib və bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 25,3 faiz artımdır.

"Təəssüf ki, illərdir, bu məsələ müzakirə edilir, deyilir, təkliflər səslənir, amma real nəticə yoxdur"

**Ekspertlər hesab edir ki, dəniz nəqliyyatı ilə daşınmalarda artım müşahidə edilməsi dəniz nəqliyyatının inkişafına təkan verən amildir. Nəqliyyat məsələləri üzrə ekspert, sosioloq İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, insanların dəniz nəqliyyatına üstünlük verməsi müsbət tendensiyadır:**

- Biz illərdir ki, paytaxtdakı tıxac probemindən danışırıq, müzakirələr aparılır, rəylər, təkliflər səslənir, müxtəlif proqramlar, layihələr icra olunur, amma bu problem həllini tapmır. Doğrudur, DSK-nin açıqladığı rəqəmlər bilavasitə şəhər nəqliyyatına aid deyil. Bu rəqəmlər dəniz limanından qonşu ölkələrə gedən, səyahət edən sərnişinlərə aiddir. Azərbaycanın Rusiya və Türkmənistanla birbaşa dəniz sərhədi var. Və dəniz nəqliyyatından istifadə edənlər əvvəlcə bu ölkələrə, sonra da quru yolla Orta Asiyanın digər respublikalarına da hərəkət edə bilirlər. Bu, xarici gediş-gəlişlərdir. Bir də var, ölkə daxilində, sərnişin daşınmasında dəniz nəqliyyatından istifadə etmək. Bunun örnəyi, nümunəsi və təcrübəsi Avropa ölkələrində, o cümlədən qardaş Türkiyədə var. Orda bilirsiz ki, böyük, kiçikhəcmli gəmilər, vapurlar işləyir və sərnişinlər liman şəhərlərinə, İstanbulun Anadolu hissəsindən Avropa hissəsinə hərəkət edirlər. Dəniz nəqliyyatı çox sərfəli, ekoloji cəhətdən də faydalıdır. Bizdə də bunu təşkil etmək olar, lap elə Türkiyə təcrübəsindən istifadə etməklə. Xüsusən də Bakıətrafı qəsəbələr, kəndlərə dəniz nəqliyyatının təşkili şəhərdə tıxacların aradan qaldırılmasına çox böyük kömək edər. Təəssüf ki, illərdir, bu məsələ müzakirə edilir, deyilir, təkliflər səslənir, amma real nəticə yoxdur.

*İ.Hüseynli qeyd etdi ki, dəniz nəqliyyatı həmişə maraqlı, cazibədar olub:*

- İnsanlar gəmi ilə səyahət etməyi sevir. Turizmin kruiz növü həmişə populyar olub. Bir gəmi ilə bir neçə ölkəyə səfər etmək həm sərfəlidir, həm də maraqlı. Ümumiyyətlə, gəmi səyahəti digər heç bir səyahət növü ilə müqayisəyəgəlməz dərəcədə gözəldir, rahatdır. Bu səyahət növü də bizdə hələ ki reallaşmayıb. Rusiyanın cənub şəhərlərinə, Xəzəryanı dövlətlərə dəniz turları təşkil etmək olar. İnsanlar bunu xoşlayacaq, təkliflər çoxalacaq. Kruiz səyahətinin üstünlükləri çoxdur. Bu, böyük gəlir gətirən sahədir. Xəzəryanı ölkələrlə kruiz əlaqələrinin qurulması, gəmi ilə səyahət marşrutlarının açılması turizm sahəsinin inkişafına xidmət edər. Ölkə daxilində də həm ictimai nəqliyyatda, sərnişindaşmada, həm də səyahət, gəzinti baxımından şimal, cənub bölgələrimizə, eləcə də Bakıətrafı qəsəbələrə nəqliyyat və turizm marşrutları təşkil etmək olar.

**Məlahət Rzayeva**

# Rusiya gecikib, qatar artıq gedib

## Azərbaycan-Ermənistan arasında saziş gec-tez imzalanacaq

**Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib ki, nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması və tərəflərin əldə etdiyi irəliləyiş Rusiyanın iştirakı ilə üçtərəfli platformada əldə olunub. Onun sözlərinə görə, avropalıların bunu qeyd etməməsinə baxmayaraq, reallıq budur:**



"Danışıqlar üzrə tərəfdaşlarımız razılaşırlar ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli bəyanatına uyğun olaraq yaradılmış platforma ən böyük tərəqqinin əldə olunduğu yerdir. Bunu həm azərbaycanlılar, həm də ermənilər deyir. Həqiqətən də belədir". Overçukun fikrincə, baş nazir müavinlərinin üçtərəfli İşçi qrupu formatından uzaqlaşmasının hamı üçün aşkar mənfi təsirləri olacaq.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, Rusiya Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olur. Onun sözlərinə görə, Rusiya baş nazirinin müavini Aleksey Overçukun danışıqlar platforması haqqında dedikləri bir neçə gün qabaq Rusiya XİN sözçüsü Mariya Zaxarovanın arqumentləri ilə üst-üstə düşür**: "Mariya Zaxarova da baş nazirlərin müavinləri səviyyəsində İşçi qrupunun fəaliyyətini yüksək qiymətləndirirdi. Ancaq sirr deyil ki, bugünədək danışıqların nəticə verməməsinin səbəbi Rusiyadır. Ümumiyyətlə, son üç yüz ildə Azərbaycanın başına gələn bəlaların mənbəyi Moskvadır. Kremlin şeytan barmağı daim Cənubi Qafqazdadır".

Müsahibimiz qeyd edib ki, Rusiyanın "5-ci kolon"u da Azərbaycanda çox güclüdür. C.Nuriyev bildirib ki, Azərbaycan rəhbərliyi bunu bildiyi üçün balanslaşdırılmış siyasətlə Rusiyanın "velikorus" (böyük rus) şovinizmini bir növ zərərsizləşdirir: "Buna da çox uğurla nail oluruq. Təəssüf ki, Rusiya öz imperiya ambisiyalarından əl çəkə bilmir. Ukraynadakı uğursuzluqları Cənubi Qafqazdakı "uğurlar"la kompensasiya etməyə çalışır. Moskva hər vəchlə səy göstərir ki, regiondan çıxmasın və bölgədə qala bilsin. Xüsusən, Türkiyənin bölgədə olmasını qətiyyən istəmir".

*Analitik vurğulayıb ki, Kremlə görə tərəflər Rusiyanın iştirak etdiyi üçtərəfli platformanı əsas götürməli və digər formullardan qaçmalıdırlar:* "Moskva açıq formada Vaşinqton və Brüssel formatlarını qəbul etmədiyini deyir. Halbuki başqa bir qeyri-rəsmi üçlük - Moskva-Tehran-Paris platforması da çox "gözəl" işləyir. Bu üçbucağın məqsədi Azərbaycan-Türkiyə münasibətlərini gərginləşdirmək və ölkəmizi dəstəksiz qoymaqdır. Ancaq Rusiya gecikib, qatar artıq gedib. Moskva Ukrayna və Qərbin təzyiqlərinə tab gətirə bilmir və məğlubiyyətə doğru gedir. O baxımdan Azərbaycan-Ermənistan arasında saziş gec-tez imzalanacaq".

**Ekspert onu da əlavə edib ki, Azərbaycanda son günlər ruspərəstlər aktivləşməyə başlayıblar**: "Bakıda rus dili təhsili, rusdilli məsələsi yenidən aktuallaşıb. Bilən də, bilməyən də rus dilində danışmağa çalışır. Şəhərin mərkəzində "Rusiya Evi" açıblar və hər gün orada tədbirlər keçirilir. Nə qədər rusbaş var, hamısı ordadır. Rusiyanın Azərbaycana təzyiq formasından biri də budur".

**İsmayıl**



# Rusiya geri çəkilmək niyyətində deyil

## Ukraynadakı müharibənin uzanacağı daha real görünür

**”Ukrayna işğala məruz qalmış ərazilərini geri qaytarmaq üçün həlledici sınaq qarşısındadır. Əks-hücum əməliyyatları isə hələlik böyük nailiyyəti Kiyevin qismətinə yazmayıb”. Bu barədə siyasi şərhçi, jurnalist Aqşin Kərimov deyib. Ekspert bildirib ki, cəbhə xətti əməliyyatlar başlayana qədərki vəziyyətindən Ukraynanın xeyrinə cüzi dəyişib, lakin bu, həlledici üstünlük sayılmır:**

”Rusiya cari döyüş xətlərini sabit saxlamaqla müdafiəyə üstünlük verir, Ukrayna isə həmin eşelonları yarıb ərazilərini qaytarmağa çalışır. Kiyev ümid edir ki, özünün cəsarəti, Qərbin dəstəyi və Rusiyanın müharibədəki taktiki səhvləri Ukraynanı döyüş meydanından qalibiyyətlə çıxara bilər. Çünki Rusiyanın aşkar hərbi təcavüzü Qərblə Ukraynanın vahid cəbhədən Moskvaya qarşı durmaq əzmini sərtləşdirir. Ukrayna qüvvələri böyük uğur qazanmaq üçün Rusiyanın əsas istehkamlarını yarmalı, Azov dənizi sahili boyunca Donbasdan Krıma qədər Rusiyanın quru yolunu kəsməlidir. Rusiyanın Qara dəniz donanması da daxil olmaqla Krımı blokadaya almalı və rus qoşunlarına maneələr törətməlidir. Ancaq bunlar çətin məsələdir, ən azından ona görə ki, cəbhə xətti uzun və mürəkkəb relyeflidir. Başqa tərəfdən, Ukraynanın canlı qüvvə problemi mövcuddur, həmçinin onda genişmiqyaslı əks-hücum əməliyyatları aparmaq üçün silah-sursat çatışmazlıqları var. Digər təhlükəli amil isə Rusiyanın ərazi itkilərinə məruz qalacağı təqdirdə onun nüvə silahından istifadə risklərinin artması ilə bağlıdır.

Qısası, Ukrayna qoşunlarının əməliyyat planlaması Rusiyanın tərtib etdiyi sxemdən qat-qat üstündür. Lakin onun yerinə yetirilməsi üçün lazım olan silah-sursat və şəxsi heyət azlığı Kiyevi çətin vəziyyətə salır”.

***Analitik vurğulayıb ki, üfüqdə döyüşlərin davamlı olmasını gözləmək düzgün versiya kimi səslənir:*** ”Bütün hallarda Rusiya nüvə silahı tətbiq etməyəcəyi təqdirdə Ukraynanın qələbəsi NATO-nun hərbi dəstəyi ilə Kiyevin siyasi qətiyyəti arasındakı bərabərlik işarəsindən asılı vəziyyətdə qalmaqdadır. Ukraynada ruhlandırıcı performansın qalması qeyd edilən simmetriyanın sarsıdıcı pozulmamasına görədir. Ukraynadakı müharibənin nəticələrini həyəcanla gözləyənlər postsovet regionu və Avropadır. Çünki müharibənin nəticələri strateji olaraq bir-birilə siyasi-iqtisadi bağlılığı olan iki regionun təhlükəsizliyinə təsirlər fonunda yeni dəyişmələrə gətirib çıxara bilər. Ukraynanı silah-sursatla və kəşfiyyat məlumatları ilə təmin edən NATO-nun iki nəhəngi - ABŞ və Böyük Britaniya dəstəyini əsirgəməsə, Kiyev üçün üfüqdə parıltı görünəcək. Lakin reallıq arzuolunandan bir qədər fərqlidir. Artıq ABŞ-də respublikaçılar arasında yüksək səsli narazılıqlar var ki, Vaşinqton Kiyevə dəstəyə məhdudiyyət qoymalıdır. Bu çağırışlar ABŞ-nin düşdüyü iqtisadi vəziyyət fonunda arqument kimi ortaya qoyulur. Belə durum Ukraynanın yeni yaranmaqda olan əks-hücum əməliyyatları üçün riskləri artırır”.

**A.Kərimov əlavə edib ki, Böyük Britaniya kölgəsini bəzi regionlara salıb özünü gizlədən həlledici aktordur:** ”Hələlik bu qabiliyyət tələb edir ki, London Kiyevə həyati əhəmiyyətli dəstəklərini davam etdirsin. Ukraynanın Rusiyanın içərilərindəki diversiya fəaliyyətləri də müharibənin tərkib hissəsinə çevrilir. Moskva Kiyevin transsərhəd reydləri qarşısında aciz durumdadır. Lakin Kreml, həqiqətən də, bunun qarşılığında böyük qisas ala bilər. Rusiyanın mümkün qisas fazasının nəticələrinə isə ABŞ və onun müttəfiqləri deyil, Ukrayna özü qatlaşmağa hazır olmalıdır. Artıq Rusiyanın cavab tədbirləri qarşısında daha həssas olan ölkələr, məsələn, Polşa, Finlandiya və Baltikyanı ölkələr Ukraynaya göstərilən hərbi öhdəliklərini ikiqat azaltmağı planlaşdırırlar. Rusiya da, Ukrayna da döyüş meydanındakı nəticələrlə özlərini danışıqlar aparmaq üçün mümkün olan ən yaxşı mövqeyə qoymağa çalışdıqca, müharibənin müddəti uzanacaq”.

**İsmayıl**

# Arazdəyəndə ABŞ bayrağının qaldırılması təxribatdır

## Gözləyirlər ki, Azərbaycan tərəfi bu hadisəyə qarşı hər hansı bir məcburi addım atsın, onlar da dünyaya servis etsinlər





**İşğal altında qalan Kərki kəndi ilə Naxçıvan arasında yerləşən Arazdəyəndə metallurgiya zavodu inşa edən Ermənistan dünən saat 13:00-da həmin ərazidə ABŞ bayrağını qaldırıb. Bu barədə erməni mediası məlumat yayıb.**

Metallurgiya zavodunda ABŞ bayrağının qaldırılmasına münasibət bildirən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov ”Şərq”ə bildirib ki, ermənilərin həyata keçirdiyi bu təxribat, Amerikanın bölgəyə müdaxilə etmək cəhdidir: ”Hətta orada ABŞ və Ermənistan bayrağı ilə yanaşı, Qondarma Dağlıq Qarabağ dövlətinin də bayrağı qaldırıla bilər. Ümumiyyətlə, bunların hamısı Azərbaycanın hansısa müdaxilə etməsinin qarşısının alınmasına hesablanmış addımlardır. Mütləq şəkildə bunun foto və videosu çəkilərək dünyaya servis ediləcək. Yəni dünyaya deyəcəklər ki, baxın, Azərbaycan Ermənistan tərəfindən açılmış metallurgiya zavodunda ABŞ bayrağına necə hörmətsizlik etdi kimi şərh olunacaq. Əlbəttə ki, rəsmi Bakı da bunu çox yaxşı bilir. Xüsusilə də Azərbaycana yeni Amerika səfirinin təyin ediləcəyi bir dönəmdə belə təxribata gedilməməsini anlayır. Mən inanıram ki, müvafiq qurumlar tərəfindən diplomatik addımlar atılacaq və bu, ermənilərin həyata keçirəcəyi təxribatları sıfıra endirəcək”.

*Qeyd edək ki, metallurgiya zavodu ABŞ-də fəaliyyət göstərən ”CS Global Investments” (sahibi Hindistan əsilli Bobbi Kanqdır) və ”Virtual Funding” (sahibi Ermənistan vətəndaşı Qriqor Ter-Qazaryandır) şirkətlərinin investisiyası hesabına inşa edilir. Belə bir zavodun Arazdəyəndə inşa edilmə planı Kərki kəndinin hərbi yolla azad edilməsi perspektivinin önünü kəsməyə hesablanıb. Çünki ABŞ öz şirkətlərinin investisiya qoyduğu ərazilərdə hərbi gərginliyin olmasının əleyhinə çıxır.*

**Nihat Müzəffər**

# Azərbaycan və Ermənistan sülhlə bağlı anlaşmalıdır

## Bu prosesə ən çox mane olan Rusiya və Fransanın imkanları isə bloklanmalıdır

**Avropa Şurasının baş katibi Maria Peyçinoviç-Buriç Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyasında çıxışı zamanı Azərbaycan-Ermənistan arasında da sülh danışıqlarından danışıb. Deyib ki, Avropa Şurası Azərbaycan və Ermənistan arasında danışıqların bərpası və qarşılıqlı inamın yaradılması üçün əlindən gələni etməyə hazırdır.**



Yalnız bundan sonra Azərbaycan və Ermənistan ikitərəfli təmaslarla ən qısa müddətdə yekun sülh sazişini imzalaya bilərlər

Lakin onun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında sülh yalnız iki ölkə liderinin danışıqları nəticəsində əldə oluna bilər: ”Biz bugünədək iki ölkə arasında qarşılıqlı inam və dialoqun yaradılmasına səy göstərmişik. Bir neçə həftə bundan əvvəl yüksəksəviyyəli nümayəndə heyətimiz Azərbaycanda səfərdə olub. Yaxın günlərdə nümayəndə heyətimiz Ermənistana da səfər edəcək. Lakin ən əhəmiyyətlisi iki ölkə arasında danışıqların bərpa olunmasıdır. Hər iki dövlətin lideri bir araya gəlib öz aralarında sülhə nail olmalıdırlar”. Adətən vurğulanır ki, Qərb sadəcə vasitəçilik təşəbbüsü ilə çıxış edir və tərəflər arasındakı müzakirələrə qarışmır. Rusiya isə əksinə, hər ortamda ”üçtərəfli” danışıqlardan söz açır, Moskva üçbucağı əsas tərəfi kimi gündəmə gətirir. Yəni Kremlin söz sahibi olduğunu deyir. Belə məqamda Avropanın ”iki ölkə öz arasında ortaq məxrəcə gəlməlidir” yanaşması diqqət çəkir.

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında bildirib ki, ABŞ-nin və bəzi Avropa qurumlarının Azərbaycan və Ermənistanı ikitərəfli təmaslarla anlaşmağa çağırması ən doğru yanaşmadır. Analitikin sözlərinə görə, prosesin məntiqi də bunu tələb edir:** ”Anlaşmaya ehtiyac olan bütün problemlər məhz Azərbaycan və Ermənistan arasındadır. Ona görə də məhz Azərbaycan və Ermənistan anlaşmalıdır. ABŞ və Qərb, eləcə də Rusiyanın vasitəçiliyi isə yalnız bu ikitərəfli təmaslara şərait yaratmaqdan ibarət olmalıdır. Onlar müzakirə olunan mövzulara müdaxilə etməməlidirlər və tərəf tutmamalıdırlar. Ancaq hazırda ABŞ və Brüssel prosesləri istisna olmaqla, bunun tam əksi müşahidə olunur. Rusiya üçtərəfli müzakirələr üzərindən Azərbaycan və Ermənistan arasında sülh prosesinin məzmun və istiqamətlərini təkbaşına müəyyən etməyə çalışır. Hətta Kreml Azərbaycan və Ermənistan arasında müzakirələrdə sülhyaratma məqsədi güdən heç bir addım atmır. Əksinə, Kremlin əsas hədəfi ondan ibarətdir ki, əgər Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi imzalanacaqsa, bu sənədin məzmunu yalnız birmənalı şəkildə Rusiyanın Cənubi Qafqazdakı geopolitik maraqları üzərində qurulsun. Yəni Kreml sülh prosesinə iki ölkənin normal münasibətlər qurması kontekstindən deyil, məhz Rusiyanın hədəflərindən yanaşır. Belə vasitəçilik yolverilməzdir. Bu, Cənubi Qafqazda sülh prosesinin uğur qazanması cəhdləri qarşısında ən böyük əngəldir”.

*Ekspertin qənaətincə, əminliklə demək olar ki, Rusiya sülh yaratmaq məqsədilə deyil, məhz onu pozmaq üçün vasitəçilik edir:* ”Bu baxımdan, Cənubi Qafqazda sülh prosesinin uğur qazanması üçün ilk növbədə Rusiyanın vasitəçiliyindən imtina etmək vacibdir. Əks halda, Rusiya bu prosesə müdaxilə etmək imkanlarını saxladığı müddət ərzində sülh danışıqları heç bir ciddi nəticə verməyəcək.

Kremlin üçtərəfli anlaşmaları sülh danışıqlarında əsas hüquqi baza kimi qəbul etdirməyə çalışması da məntiqsiz və yolverilməz mövqedir. Çünki üçtərəfli anlaşmalar müvəqqəti çərçivə sənədlərindən başqa bir şey deyil. 10 noyabr üçtərəfli anlaşmasının müddəti isə ümumiyyətlə, 2025-ci ildə sona çatacaq. Rusiya sülhməramlı qüvvələri Azərbaycan ərazisindən çıxmalı olacaq. Kremlin əsas cəhdləri indi həmin sənədi başqa məzmunda - sülh sazişi adı altında Azərbaycan və Ermənistana qəbul etdirməyə yönəlib. Yəni Kreml Azərbaycan və Ermənistanın əvəzindən yalnız Rusiyanın geopolitik maraqlarını ifadə edən sülh sazişinin mətnini hazırlayıb, belə bir məntiqsiz sənədi hər iki tərəfə imzalamağa can atır.

Digər tərəfdən, üçtərəfli anlaşmalar sülh prosesində əsas hüquqi baza ola bilməz. Çünki Azərbaycan və Ermənistan arasında yekun sülh sazişi məhz beynəlxalq hüquq normaları çərçivəsində hazırlanmalıdır. Kremlin Rusiyanı bu prosesdə BMT-nin statusunda ön plana çıxartmağa çalışması təhlükəli məqamdır. Ona görə də Kremlə anlatmaq lazımdır ki, Rusiya sülh prosesində söz sahibi ola bilməz”.

***E.Xalidbəyli vurğulayıb ki, bütün bunlarla yanaşı, hazırda baş verənlərdə Fransanın da məkrli davranışları xüsusi rol oynayır:*** ”Rəsmi Paris də Rusiya kimi, sülh yaratmaq deyil, prosesin pozulması istiqamətində fəaliyyət göstərir. Fransa Ermənistanın silahlandırılmasına başlayıb. Bu, regional sülh prosesinə ən ağır zərbədir. Ona görə də Avropa qurumları Azərbaycan və Ermənistanı ikitərəfli təmaslara çağırmaqla yanaşı, Fransanı da sülh prosesini əngəlləmək cəhdlərindən imtinaya çağırmalıdır. Fransa indiyə qədər iki dəfə - ötən ilin dekabrında və bu ilin iyun ayında sülh prosesini pozmağa nail olub. Ona görə də Rusiya kimi, Fransanın da Cənubi Qafqazdakı bütün proseslərdən təcrid edilməsi vacibdir. Bütün bunlar onu göstərir ki, Cənubi Qafqazda sülh prosesinə ən ciddi əngəl məhz Rusiya və Fransanın timsalında kənar müdaxilələrdir. Ona görə də Rusiya və Fransanın sülh prosesinə müdaxilə imkanlarını bloklamaq lazım gələcək. Yalnız bundan sonra Azərbaycan və Ermənistan ikitərəfli təmaslarla ən qısa müddətdə yekun sülh sazişini imzalaya bilərlər”.

**İsmayıl Qocayev**

# Qəfil ölümlərin peyvəndlə əlaqəsi sübut olunmayıb




## Ürək-damar xəstəliklərinin əsas səbəbi hərəkətsizlik, oturaq həyat tərzi, trans yağlardan və şirniyyatlardan çox istifadədir

**Bugünkü statistik reallıqlara baxanda nəinki ölkəmizdə, eləcə də dünyada ürək-damar sistemi xəstəliklərinin sayında xüsusi artım yoxdur.**





*Bunu APA-ya açıqlamasında ürək-damar cərrahı, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Rəşad Mahmudov deyib.* O bildirib ki, ürək-damar xəstəlikləri say baxımından həmişə dünyada birinci yerdə olub, bu gün də elədir və ani ölümlərin bir nömrəli səbəblərindəndir: ”Əfsus ki, insanlarımız KİV-də bu barədə gedən məlumatların sürətlə yayılmasına görə elə zənn edirlər ki, ürək-damar sistemi xəstəliklərinin sayında artım var. Lakin ürək-damar sistemi xəstəliklərinin sayında artım müşahidə edilmir, bu həmişə bir nömrəli problemlərdən olub”. Rəşad Mahmudov COVID-19 əleyhinə vurulan peyvəndlərin ürək-damar sistemi xəstəliklərini artırması ilə bağlı məqama aydınlıq gətirərkən isə bildirib ki, bununla bağlı sübut edilmiş heç bir məlumat yoxdur: ”Bununla bağlı heç bir fakt olmadan belə bir fikrin yayılması peyvəndlərə qarşı əks-təbliğata çevrilə bilər ki, bu da ürək-damar sistemi xəstəliklərindən daha ciddi problemlərin ortaya çıxmasına səbəb ola bilər”.

*R.Mahmudov həmçinin bildirib ki, anidən vəfat edən jurnalist Zülfüqar Hüseynzadə və operator Tural Qasımovun peyvənd olunmamışdan əvvəl ürək-damar sistemində problem olub:* ”Zülfüqar Hüseynzadə peyvənd olunmamışdan əvvəl ürək problemi yaşayıb, həyati təhlükə yaşadığı zamansa ürəyinə stend qoyulub. O, risk qrupunda olan şəxslərdən idi. Təəssüf ki, daha əvvəldən ürək probleminin olması və qəfil tutma zamanı gecə, dağ şəraitində yardım göstərilə bilinməməsi həyatını itirməsi ilə nəticələndi”.

O bildirib ki, risk qrupunda olanların vaxtında həkimə müraciət etməsi önəmli olsa da, daha vacib olan qidalanma və həyat tərzinə fikir verməkdir: ”Həyatımız getgedə sünniləşir. Özümüzü qorumaq üçün imkan daxilində təbii qidalara üstünlük verməyimiz və aktiv həyata meyilliliyimizi artırmalıyıq. Dövrümüzün bəlası olan internetin şərait yaratdığı informasiya yükü və hərəkətsiz həyat tərzindən bacardığımız qədər özümüzü müdafiə etməliyik. Gündəlik 5 km yerimək çox faydalıdır. Bu, xərçəng xəstəliyindən qorunmaqda da bir nömrəli üsullardandır. Digər məqam isə təbii ki, zərərli vərdişlərdən uzaq olmaqdır”.

**İnfeksionist Mərdan Əliyev isə ”Şərq” açıqlamasında deyib ki, peyvəndlə bağlı həmişə belə iddialar olub, amma bunun elmi əsası yoxdur:** ”Belə hallar çoxdur, mən də eşitmişdim. Koronavirus peyvəndi çıxandan bəri bu tip iddialar səsləndirilir. Amma bunun heç bir elmi əsası yoxdur.

Peyvənd dozası azaldılan viruslardır, insan orqanizminə yeridilir, bundan sonra həmin virusa qarşı bədəndə immunitet əmələ gəlir. Düşünürəm ki, bu tip iddialar yalandır. Peyvənd qoruma xarakteri daşıyır. O ki qaldı ürək-damar sistemindəki xəstəliklərə və qəfil ölüm hallarına, bunun səbəbləri hərəkətsizlik, oturaq həyat tərzi, trans yağların istifadəsi, şirniyyatlardan çox istifadədir.

Hansı ki, bu sadaladıqlarım qanda xolesterinin yüksək olmasına gətirib çıxarır. Bu da öz növbəsində ürək-damar sistemini zədələyir. Ona görə də ürək-damar xəstəliklərinin səbəbini peyvəndlərdə axtarmaq doğru deyil”.

Bildirək ki, koronavirus peyvəndinin ürək-damar sistemini zədələməsi ilə bağlı elmi araşdırma olmadığı kimi, zədələmədiyi haqda da məlumat yoxdur.

**Şəymən**

# İstiqlalın gizlin qəhrəmanı



Akif Aşırlı

**Həyatını millətin istiqlalı, azadlığı yolunda qurban edən saysız-hesabsız qəhrəmanlar var. Tarixin itib-batan qaranlıq məkanlarından uğrunda can qurban etdikləri vətənə tərəf boylanan, ruhu millətin azadlıq eşqində dolaşan bu qəhrəmanlar öz adını yaşatmaq üçün mücadilə etməyib. Onların amalı müstəqil, azad Azərbaycan Cümhuriyyətinin varlığını yaşatmaq olub. Azərbaycan Cümhuriyyətini quran, bu müqəddəs amala xidmət edən tarixi şəxsiyyətlərin hər birinin həyatı, fəaliyyəti bizim üçün öyünüləsi, öyrənilməsi vacib olan mühüm məsələlərdir.**

M.Ə.Rəsulzadə, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Ə.Topçubaşov, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları, Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyli, Mustafa bəy Vəkilli və əqidədaşları yoxdan var olan müstəqil Azərbaycan yaratdılar. Bu şəxsiyyətlərin sırasında Azərbaycan Cümhuriyyəti üçün varlığını qanlı-qadalı mübarizələrə, mücadiləyə həsr edən, heç bir təhlükədən qorxub-çəkinməyən yüzlərlə istiqlalçı mücahid var. Bu mücahidlərin çoxunun nə məzarının yeri bəllidir, nə də taleyinə azacıq işıq salan tədqiqatların, araşdırmaların izi var.

Belə mücahidlərdən, istiqlal fədailərindən biri Kərbəlayi Vəli Mikayılzadədir.

Azərbaycan Türk Ocağı və Müsavat Partiyasının qurucularından olan Kərbəlayi Vəli Mikayılzadə 1877-ci ildə Bakıda anadan olub.

Kərbəlayi Vəlinin ulu babası "Topuz vuran" Eyvaz Bakının Bülbülə kəndində igidliyi, mərdanə davranışı ilə seçilib, sözünün qabağına söz deyən olmayıb. Ailə şəcərəsini, nəsil, soy-kök ağacını köhnə bir dəftərə yazan, Kərbəlayi Vəlinin övladı Əyyub Mikayılov "Topuz vuran" Eyvazın təqribən 1750-ci illərdə Bakının Bülbülə kəndində məşhur bir şəxs olduğunu atasının, yaxın qohumlarının xatirələrinə söykənərək qələmə alıb: "Eyvaz kişi bayramlarda, toylarda və məclislərdə meydanlar gəzir, özünə rəqib axtarırdı. O zamanlar topuz vurmaq çox şöhrət tapmışdı. Eyvaz kişinin yalnız bir oğlu olur ki, adını Mikayıl qoyur". Bakı və ətraf kəndlərdə igidliyi ilə seçilən Eyvaz kişinin bu tək oğlu Mikayılın adı sonradan nəslin soyadına çevrilir, bugünədək gəlib çıxır.

Qeyd edək ki, topuz, qədim türklərin hərb tarixində istifadə etdiyi soyuq silahlardan biri hesab edilir. Süvarilərin, yeniçərilərin döyüşlərdə yararlandığı bu soyuq silah qamçıdan və qamçının sonunda bir neçə deşici, kəsici dişlərdən ibarət müxtəlif metaldan tökülən dairəvi alətdir. Görünür, türk döyüş sənətinin zamanında ən çox istifadə edilən bu soyuq silahı sonradan meydanlarda qoçular, el pəhləvanları arasında döyüşlərdə, cəng davalarında istifadə olunub.

Nəslin bünövrə daşı Eyvaz kişi Bülbülədə dünyasını dəyişir, oğlu Mikayıl XIX əsrin əvvəllərində Bakının mərkəzinə köçür. Bu həmin vaxt idi ki, Bakı kapitalist şəhərinə, milyonlar səltənətinə hələ yeni-yeni çevrilirdi, yerin altındakı qara qızılın sorağı bütün dünyaya yayılırdı. Mikayıl Bakının keçmiş Basinlə Dimitrov küçəsi arasında özünə yerdən qazma bir dam tikir, taxılçılıqla məşğul olur, evlənir. İki oğlu dünyaya gəlir, əvvəl Yaqub, sonra Əyyub doğulur.

Ahıl yaşında gözlərini əbədi yuman Mikayılın övladları əl-ələ verib, atalarının yolunu davam etdirir, əkinçiliklə məşğul olur, qardaşların övladları dünyaya gəlir. İstiqlal tariximizin naməlum qəhrəmanlarından olan Kərbəlayi Vəli Mikayılzadə Əyyub kişinin ailəsində doğulur. Bu ocaqda sonra iki qız da dünyaya gəlir, adını köhnə bakılıların qız uşaqlarına sevə-sevə qoyduqları Bikəxanım İzzətxanım adlarını qoyurlar.

Yaqubla Əyyub ticarətə başlayır, Həştərxana tacirlərin mallarının daşınmasından da yaxşı pul, imkan qazanır, xətir-hörmət sahibi olurlar. Qardaşlar birləşib Bakının köhnə Dimitrov küçəsində ikimərtəbəli imarət tikdirir, ailələri birgə yaşayır.

Əyyub növbəti dəfə gəmi ilə tacirlərin yükünü Həştərxana daşıyanda, bakılı tacir Mir Səlah, nədənsə sövdələşməni pozur, daşınma haqqını vermək istəmir, Əyyubla mübahisəyə başlayır. Əlini tapançasına atan Mir Səlah Əyyubu nişan alsa da, güllələr yan keçir. Tapançanı cəld Mir Səlahın əlindən alan Əyyub onu güllələyir. Nəsillər arasında araya on illərlə davam edən qan düşür, düşmənçilik başlayır. Beləliklə, Əyyubun Bakıya yolu bağlanır. Bir müddət gəmini Ənzəli limanında saxlayır, xəbər alır ki, Hacı Səlahın qohum-qardaşı onun yerini öyrənib, qisasa hazırlaşırlar. Ailəsini Bakıdan öz yanına gətirdən Əyyub yolunu Kərbəlaya salır. Çünki bu müqəddəs yer toxunulmaz bir məkan hesab edilir, düşmənçilik burda mümkünsüzdür, qətlə yetirilmək qorxusu yoxdur. Düz 17 il Əyyub öz ailəsi, oğlu, iki qızı ilə Kərbəlada yaşayır və orda da dünyasını dəyişir.

Qan düşmənçiliyinin aradan qalxdığını, sovuşduğunu görən Vəli ata-anasını Kərbəla torpağına tapşırandan sonra Bakıya, ömrünün son illərini yaşayan əmisi Yaqubun yanına qayıdır. Əmisi qızı Anaxanımla evlənən Vəli müqəddəs Quranı, fars-ərəb dilini, islam fəlsəfəsini gözəl bildiyindən Bakıda Kərbəlayi Vəli kimi tanınır, hörmət edilir.

***

1905-ci il inqilabından sonra Bakının ictimai-siyasi, mədəni həyatında yeniliklər bir-birini əvəzləyir, anadilli mətbuat nümunələr, "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Dəbistan" və digər mətbu nəşrlər çap edilir, yayılır. Xeyriyyə cəmiyyətləri, dram truppaları, gizli siyasi dərnəklər yaradılır, ictimai təşkilatlar qurulur. Bakı və ətraf kəndlərdə biliyi, bacarığı, ən əsası da mübariz əhval-ruhiyyədə olan Kərbəlayi Vəli ictimai-siyasi, mədəni həyata qatılır, xeyriyyəçiliklə məşğul olur. Ədəbi yaradıcılıqla məşğul olduğundan, dövrün bir çox mətbu orqanları ilə əlaqə qurur, bu nəşrlərin fəaliyyətində yaxından iştirak edir. Kərbəlayi Vəlinin oğlu Əyyub Sovetlər dönəmində "Mənim tərcümeyi-halım" adlı qısa xatirəsində atasının bədii yaradıcılığı ilə bağlı cüzi məlumatlar verir: "O zaman Bakıda Azərbaycan dilində "Molla Nəsrəddin", "Babayi-Əmir", "Mozalan" və sair jurnallar, "İrşad", "İqbal", "Açıq söz" adlı qəzetlər nəşr edilirdi. Kərbəlayi Vəli bunlarda yaxından iştirak edir, məqalə və şeirlərini Sabir Badükubə, Mozalan, Cırtdan və s. gizli imzalarla nəşr etdirirdi". Azərbaycan mətbuatı və jurnalistika tarixinin tədqiqatçıları üçün maraqlı olan bu faktın ciddi araşdırılmasına, tədqiqinə ehtiyac var. Qeyd etmək lazımdır ki, Kərbəlayi Vəli kimi onlarla mətbuat fədaisinin fəaliyyəti, yaradıcılıq irsi indiyədək tədqiqatdan kənarda qalıb.

Kərbəlayi Vəli Mikayılzadənin anadilli qəzet və jurnallarda iştirakını qocaman teatr və mətbuat tarixçisi, fenomenal yaddaşa sahib Qulam Məmmədli təsdiqləyir. Q.Məmmədlinin Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivindəki bir çox qəzetlərlə bağlı tədqiqat əsərlərində Kərbəlayi Vəli Mikayəlzadənin "Məlumat" qəzetində iştirakı barədə məlumatlar əksini tapır.

Q.Məmmədli "İmzalar" kitabında Kərbəlayi Vəli Mikayəlzadənin Əli bəy Hüseynzadənin redaktor olduğu "Həyat" qəzetində Kərbəlayi Vəli Cəbir Badükubeyi imzası ilə məqalələr yazdığını qeyd edir. Kərbəlayi Vəli 1911-ci ildə "Şahabi-Sabiq" dərgisində "K.V.M" imzası ilə çıxış etdiyini bildirir. Hələlik yetərli qədər əldə olunan bu məlumatları ümumiləşdirsək, belə qənaətə gəlmək olar ki, Kərbəlayi Vəli Mikayılzadə dövrün əksər mətbu nəşrlərində məqalə və şeirlərini çap etdirib.

Hacı İbrahim Qasımovun redaktorluğu ilə 1911-ci il iyulun 1-də nəşr olunan "Məlumat" qəzeti anadilli jurnalistikamızda ilk xəbər qəzeti də adlandırmaq olar. Kiçik formatda 4 səhifədə çap olunan bu mətbu nəşrdə dövrün bir çox tanınmış qələm sahibinin imzası var, o cümlədən Kərbəlayi Vəli Mikayılzadə də bu sırada idi.

Tədqiqatlarımız zamanı bəlli olur ki, "Məlumat"ın bir neçə sayında Kərbəlayi Vəlinin Sabir Badükubə imzası ilə kiçik həcmli şeirləri çap olunub.

Bu mətbu nəşrin 4 iyul 1911-ci il tarixli 3-cü sayında Kərbəlayi Vəlinin "Məktəb deyir" şeiri dərc olunub. Sabir Badükubə imzası ilə işıq üzü görən bu kiçik şeirdə inkişaf edən millətlər, xalqlar sırasında müsəlman xalqlarının elm, təhsil və inkişafda geriliyin səbəblərinin müqayisəsi aparılır. Tərəqqinin, inkişafın, yeniliyin yalnız təhsillə mümkünlüyünü dilə gətirən şair alloqorik tərzdə Məktəb obrazının dilindən xalqa çağırış edilir:

**Mən açılacaq dövrəmə cəm oldu hərdəst**
**Nəku**
**Kəsb edib məndən hamı elm, kamal və abır**
**Çox təəssüf başqalar aşiq ikən, islamiyyun,**
**Mən tərəfə heç baxmayıb, hər saat irəlilər**
**Millət deyir:**
**Boşla getsin, bir az qədəri söyləmə, elmi həşir.**
**Böylə sözlər bizi kimi millətlərə eyləməz əsər!**
**Yüz mükatibdən bir çayxana əfzəldir, bizə.**
**Xaricilər qovi gedib, məktəbdən alsınlar xeyir.**

Oğlu Əyyub atası Kərbəlayi Mikayılın bir çox farsdilli əsərləri türkcəyə tərcümə etdiyini xatırlayaraq yazır: "Qeyd etmək lazımdır ki, atam "İbrahim bəyin səyahətnamə"sini farscadan türk dilinə tərcümə edilərək çap edib. "Min bir gecə" nağılına bəzi təsvirlər yazıb". Atasının yaddaşında qalan qəzəlindən kiçik bir hissəni öz tərcümeyi-hal dəftərinə daxil edən Əyyub çox təəssüf ki, Kərbəlayi Vəlinin bədii yaradıcılığı barədə geniş məlumat vermir, yalnız yaddaşında ilişib qalan "Ağlama" qəzəlinin kiçik bir hissəsini xatırlayır:

**Qurban olum, o didəsi giryanə ağlama,**
**Sən ağlayanda od düşür, bu cana ağlama.**
**Ağlar gözün fədası olum, tökmə göz yaşın,**
**Rəhm eylə sən bu aşiqi bidarə, ağlama.**
**Qoy mən töküm göz yaşın, istəkli məşuqum.**
**Eşqindən düşmüşəm bu biyabanə ağlama.**
**Əyri qaşın, o qara gözün, surəti sənin,**
**Saldı məni bu qəhri-biyabanə ağlama.**

***

Əmisi qızı ilə ailə quran Kərbəlayi Vəlinin bir-birinin arxasınca 3 övladı dünyaya gəlir. 1906-cı ildə doğulan ilk övladına atası Əyyubun adını qoyur. 1908-ci ildə bir qız doğulur, amma iki yaşına çatmamış dünyasını dəyişir. 1912-ci ildə ailəyə növbəti oğlan övladı bəxş olur, adını Məhəmməd qoyurlar. Çox keçmir ki, bu xoşbəxt ailə növbəti çətinliklə üz-üzə qalır, Məhəmməd iflic xəstəliyinə yoluxur. Kərbəlayi Vəli onu Bakının ən məşhur həkimlərinə və Xarkova müalicəyə aparsa da xəstəliyə əlac tapılmır və gənc dünyasını dəyişir. Övlad itkisi Kərbəlayi Vəliyə pis təsir göstərir.

***

Mətbu, ədəbi fəaliyyətlə yanaşı, Kərbəlayi Vəli ictimai-siyasi proseslərə qatılır. Bakının yerli əhalisi, neft mədənlərində çalışan fəhlələr, Bakı rəncbər və tacirləri köklü nəslin nümayəndəsi kimi ona inanır, etibar edirlər. Kərbəlayi Vəli soy-kökündən gələn peşəni seçir, ticarətlə məşğul olur, Xəzərin sahillərində, indiki Bakı bulvarında böyük bir mağaza açır, İranla ticarət əlaqələri yaradır, xeyriyyə tədbirlərinə qatılır, ictimai işlərdə fəallıq göstərir.

...Nəhayət, Kərbəlayi Vəli M.Ə.Rəsulzadənin öndərliyində Azərbaycanı istiqlala aparan Müsavat Partiyasının qurucuları sırasında yer alır. M.Ə.Rəsulzadənin əmisi oğlu Məhəmmədəli Rəsuloğlunun "Müsavat Partiyasının təşəkkülü" adlı məqaləsində Kərbəlayi Vəlinin siyasi fəaliyyətinin kölgədə qalan səhifələrinə işıq salır, bir sıra məqamlarına aydınlıq gətirir. M.Rəsuloğlu qeyd edir ki, 1911-ci ilin son baharında Abbasqulu Kazımzadənin kitab-qələm, dəftər satılan mağazasında Tağı Nağıoğlunun təklifi ilə Müsavat Partiyasının əsası qoyulur. Əsasən islami dəyərlər və tələblər əsasında 1911-ci ildə qurulan "Müsavat"ın ilk sıralarına bir neçə şəxs, o cümlədən Axund Yusif Ziya, Seyid Hüseyn, Seyid Musəvi ilə yanaşı, Kərbəlayi Vəli Mikayıloğlu da qatılır. "Müsavat"ın qurulmasında, gizli fəaliyyətində, təşkilatlanmasında, maliyyələşməsində partiya sıralarına üzvlərin cəlb olunmasında Kərbəlayi Vəlinin böyük xidmətləri olur.

M.Rəsuloğlu 1918-ci ilin 31 mart soyqırımında Bakının müsəlman-türk əhalisinin erməni-bolşevik silahlılarından qorunmasında, mühafizəsində Kərbəlayi Vəlinin müstəsna xidmətləri barədə yazır: "Yollarda vətəndaşlarımızın sərbəst hərəkət edə bilmələri və gərəkirsə müdafiə olunmaları üçün Abbas bəylə (Kazımzadə - A.A.) Vəli bəy arkadaşlarımıza bir vəsiqə verdi. Bu dostlar qollarına "Müsavat" yazılan bazubənd bağlayaraq gecə-gündüz yollarda dolaşır, hücuma məruz qalan qəsəbə və kəndlərə gedir, imkan dairəsində bu vətəndaşları himayə edirdilər".

Bakıda zorla hakimiyyəti ələ keçirib qırğınlar törədən siyasi tərkibi əsasən ruslar və ermənilərdən olan Bakı Komissarları 1918-ci il mayın 28-də İstiqlalını elan edən Azərbaycan Xalq Cümhuriyyətini beşikdə məhv etmək üçün Gəncəyə hücum planı üzərində bütün qüvvələrini səfərbər edir, Rusiyadan hərbi silah-sursat, canlı qüvvə gözləyirdilər. S.Şaumyanın rəhbərlik etdiyi bu qüvvələrə Erməni Milli Şurasının, Daşnaksütyun Partiyasının silahlı quldur dəstələri də daxil idi. İstiqlalını bəyan edən Azərbaycan Cümhuriyyəti elan etdiyi sərhədlər daxilində təhlükəsizliyini, asayişi təmin etmək üçün rəsmən Osmanlı Türkiyəsindən hərbi yardım istədi və gənc dövlət olaraq beynəlxalq münasibətlər sisteminə qatılıb 4 iyun 1918-ci ildə Türkiyə ilə "Dostluq və əməkdaşlıq haqqında müqavilə" imzaladı. Bütün beynəlxalq təzyiqlərə baxmayaraq Türkiyənin hərbiyyə naziri Ənvər Paşanın qətiyyəti və siyasi-hərbi iradəsilə formalaşan Qafqaz İslam Ordusu sərhədləri keçib Azərbaycanın ərazi bütövlüyünü, soydaşlarının təhlükəsizliyini təmin etməyə gəldi.

Qafqaz İslam Ordusu komandanlığı, şəxsən 29 yaşlı Nuru Paşa ilə isti münasibət yaradan, Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimlərindən biri də Kərbəlayi Vəli Mikayılzadə idi. Azərbaycan və Türkiyə hərbi birləşmələrinin Bakıya doğru istiqamətlənən istiqlal savaşında Kərbəlayi Vəlinin böyük xidmətləri barədə Məhəmməd Əli Rəsulzadə xatirələrində məlumat verir.

M.Ə.Rəsulzadənin xatirələrində qeyd olunur ki, Kərbəlayi Vəli S.Şaumyanın formalaşdırdığı 18 min nizami qoşun hissələrinə qarşı 6 ay qanlı savaş aparan Qafqaz İslam Ordusunun Gəncə və Güzdəkdəki qərargahı ilə əlaqələr qurur, Bakıda bolşevik, erməni və ingilis hərbi birləşmələrinin silah-sursat və hərbi qüvvəsi, imkanları barədə məlumatlar ötürürdü. Verilən bu məlumatlar Qafqaz İslam Ordusunun ordu komandanlığının düzgün qərar qəbul etməsinə kömək edirdi. 1918-ci il sentyabrın 15-də Nuru Paşa komandanlığında Bakıya daxil olan Qafqaz İslam Ordusunun zabit və əsgərləri ilə səmimi dostluq, qardaşlıq münasibətləri yaradan Kərbəlayi Vəli milli ordu quruculuğu proseslərinin fəal iştirakçısı olub.

1918-ci il noyabrın 17-də Mudros barışığına əsasən Qafqaz İslam Ordusu Cənubi Qafqazı tərk etməli olur. Gənc Azərbaycan Cümhuriyyətini qorumaq üçün Nuru Paşa Osmanlı ordusundan istefa verib, Azərbaycan Ordusu komandanı kimi fəaliyyət göstərməsinə müffətiq qoşunlar komandanı Tomson etiraz edir. Qafqaz İslam ordusu Bakını tərk etməli olur. M.Ə.Rəsulzadə xatirələrində qeyd edir ki, Kərbəlayi Vəli Bakını tərk edib Gəncədə dayanan Ordunun geri çəkilməməsi, Türkiyəyə dönməmələri üçün hətta rəsmi sifətdə danışıqlar aparıb: "Məhəmməd Əmin Rəsulzadə Türk ordusu komandanlarına bizi buraxıb getməyin deyə israr etdi və bir çox ricada bulundu. Zabit heyətinin rütbələrinin bir dərəcə yüksələcəyini və əsgərlərə ikiqat maaş veriləcəyini söyləsə də əsgərlər arasındakı ixtilaf ordunun çəkilməsinə səbəb oldu. Türk əsgərləri Gəncəyə çəkildikdən sonra Türk ordusu komandanlarıyla yaxşı münasibətləri olan dostumuz Vəli bəy arxalarınca Gəncəyə göndərildi. Qalmaları üçün israrla xahiş olundu. Amma bu rica qəbul olunmadı".

K.Vəli Mikayılzadə Azərbaycanın İstiqlal savaşından bir an belə geri durmur, mübarizəsini davam etdirir. Müttəfiq orduları komandanı kimi V.Tomson 17 noyabr 1918-ci ildə Bakıya daxil olur. Rus və erməni Milli Şuraları müttəfiq dövlətlərin, xüsusən İngiltərənin bölgədəki siyasətinə ciddi təsir göstərmək üçün ciddi səy göstərir, müxtəlif planlar işləyib hazırlayırdılar. Erməni və rus Milli Şura qüvvələri V.Tomsonun Azərbaycan Cümhuriyyətinin müstəqilliyinə şübhə yaratmaq istiqamətində fəaliyyət göstərənlər təxribat planları üzərində də düşünürdülər. Təxribat və terrorun hədəfində Bakı mədənləri idi. Bakının yerli əhalisi və neft mədənləri fəhlələri arasında xüsusi hörmətə sahib olan Kərbəlayi Vəli təxribatçı erməni və rusların təxribat planlarının qarşısını alır. Bu barədə M.Ə.Rəsulzadə yaddaşına istinadən yazır: "...Bakıya daxil olan Tomson Azərbaycan Xalq Cümhuriyyətini tanımaq istəmirdi. Bunun üçün erməni və ruslar Bakının neft mədənlərinə tətil edib, bu mədənləri yerlə-yeksan edib, yandırmaq istəyirdilər ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə etimadsızlıq yaratsın. Bu halın qarşısını da Kərbəlayi Vəli Mikayıloğlu və onun vətənpərvər dostları aldı".



Kərbəlayi Vəli Mikayılzadə





**(Davamı gələn sayımızda)**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**




# Tiktok istifadəçiləri böyük enerjidir

## Bizim üzərimizə düşən bu enerjini müsbət istiqamətə yönəltməkdir

**İyunun 16-da Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə tiktok platformasında fəal olan media təmsilçilərinin bir qrupu ilə görüş keçirilib.**

Toplantını giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid son illər tiktokun ölkəmizdə populyarlaşdığına diqqət çəkib və bildirib ki, mövcud amil ona həm də informasiyanın yayılması arealı kimi yanaşmanı aktuallaşdırmaqdadır. Bu prosesdə isə jurnalistlərin daha aktiv iştirakı günün tələbidir. "Mayın 30-da tiktok platformasının Şərqi Avropa regionunda dövlət qurumları ilə iş üzrə direktoru Sergey Sokolov, dövlət qurumları ilə iş üzrə meneceri Dmitri Pylev, platforma üzərindəki canlı yayımların Orta Asiya və Şərqi Avropa üzrə direktoru Veqa Sonq, həmçinin tiktokun Azərbaycan üzrə əlaqələndiricisi Emin Axundov Mətbuat Şurasında olub. Bundan əvvəl, mayın 12-də isə tiktokun Azərbaycan üzrə əlaqələndiricisi Emin Axundovla görüşmüşdük. Ümumən, tiktok maraqlıdır ki, platformada kontent səviyyəli olsun. Buna görə ölkəmizdəki müxtəlif qurumlarla əməkdaşlığa səy göstərir", - deyə R.Məcid vurğulayıb.

MŞ sədri onu da bildirib ki, Azərbaycan jurnalistlərinin tiktok müstəvisində səviyyəli kontentin formalaşmasında iştirak imkanları yüksəkdir. O, bu iştirakçılığın xoşagəlməz halların qarşısının alınmasında, informasiya müstəvisində manipulyasiyaların aradan qaldırılmasındakı önəmindən söz açıb.

"Biz nə edə bilərik? Hesab edirik ki, tiktok nümayəndələri Azərbaycan jurnalistləri üçün təlimlər keçirə bilərlər. Mövcud istiqamətdə dəstəyimizi göstərə biləcəyimizi vurğuladıq. Xüsusən də gənc jurnalistləri bu platformaya həvəsləndirmək vacibdir", - deyən R.Məcid Mətbuat Şurasının aktiv sosial şəbəkələrdəki aktiv media təmsilçiləri ilə təmaslara üstünlük verdiyini də diqqətə çatdırıb. O, ötən il onlarla keçirilmiş görüşdə Şuranın etik prinsiplərə riayət edilməsinin vacibliyinin vurğulandığı müraciətinin yayıldığını vurğulayıb.

Görüşdə iştirak edən tiktokda fəal olan jurnalistlər mövcud platformadakı informasiya yayıcılığı ilə bağlı müxtəlif məqamlara toxundular. Onlar bildirdilər ki, məsələyə önəm verilməsi həm də ölkənin informasiya təhlükəsizliyi baxımından vacibdir. Görüşdə bu baxımdan ayrı-ayrı misallar üzərində dayanıldı. Jurnalistlər, həmçinin özlərinin səhifələrinin əsassız yerə silinməsi kimi halların mövcudluğunu qabartdılar. Eyni zamanda ilk mənbə rolunda çıxış edən dövlət qurumlarının mediaya informasiya verilməsinə məsul əməkdaşlarının da tiktokda fəallıqlarına ehtiyacın duyulduğunu bildirib, bunun yanlış informasiyaların qarşısının alınması nöqteyi-nəzərdən əhəmiyyətinə toxundular.

Görüşdə qaldırılan məsələlər qruplaşdırıldı və bildirildi ki, bütün bunlar gələcəkdə tiktok rəhbərliyinin Azərbaycan jurnalistləri ilə təmasları zamanı da müzakirəyə çıxarıla bilər.

Qeyd edək ki, ölkəmizdə tiktokla bağlı yanaşmalar müxtəlifdir. Bəzi ekspertlər də bu platformanın ictimai gündəmin formalaşmasında xüsusi rol oynamadığı qənaətindədir. Bu ekspertlərə görə, uşaqların təhlükəsizliyi baxımından zərərli olan bu platforma məhdudlaşdırılmalıdır.

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, "Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə isə "Şərq"ə açıqlamasında Mətbuat Şurasının təşəbbüsü ilə tiktok platformasında fəal olan media təmsilçiləri ilə keçirilən görüşü alqışlayıb. Onun sözlərinə görə, Mətbuat Şurası ictimai təşkilat olsa da, çoxşaxəli fəaliyyət göstərir və bütün sosial platformaları diqqətdə saxlayır. Bu baxımdan müzakirələrin keçirilməsi müsbət haldır:** "Düzdür, Azərbaycan cəmiyyətində tiktok ciddi sosial platforma kimi qəbul olunmur. Təəssüf ki, bəzi qeyri-ciddi adamlar öz mənasız və lüzumsuz hərəkətləri ilə Azərbaycanda bu platformanı nüfuzdan salıblar. Amma bu bir faktdır ki, ölkəmizdə minlərlə tiktok istifadəçisi var. Bu, böyük enerjidir. Bizim üzərimizə düşən bu enerjini müsbət istiqamətə yönəltməkdir. Mətbuat Şurasında keçirilən görüş də bu məqsədə xidmət edir".

Sözügedən görüşdə iştirak edən Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz isə deyib ki, tiktok son dövrlərdə ən çox məşhurlaşan sosial media platformalarından biridir: "Bu sosial şəbəkə xüsusən uşaqlar və gənclər arasında daha çox populyardır. Digər sosial media resurslarına nisbətən tiktok daha tez populyarlaşan resurs kimi dünyada tanınıb. Tutaq ki, feysbuk, yutub, instaqram və digər sosial media resursları indiki auditoriyasına uzun illər ərzində çatıbsa, tiktok buna çox qısa bir müddətdə nail olub.

Bununla bağlı müəyyən narahatlıqlar var. tiktokda Azərbaycanda uşaqların zərərli informasiyalardan qorunması ilə bağlı qanunvericiliyə zidd xeyli sayda məlumatlar tapmaq olar. Qanun pozuntusu digər sosial şəbəkələrdə bu dərəcədə güclü deyil. İndi də bu fikirdəyəm ki, ölkəmizdə uşaqlar üçün tiktok məhdudlaşdırılmalıdır. Əslində, qanun da bunu tələb edir. Hesab edirəm ki, tiktoka hökumət tərəfindən rəsmi münasibət sərgilənməlidir. Uşaqların bu platformadan istifadəsi ilə bağlı müəyyən məhdudiyyətlərin qoyulması doğru olardı".

> "Bu platformaya birmənalı zərərli demək olmaz. Belə demək doğrudur ki, tiktokda uşaqlar üçün zərərli ola biləcək informasiyaların xüsusi çəkisi hədsiz çoxdur"

**O.Gündüz deyir ki, hər bir platformanın bəlli əhəmiyyəti var:** "Məsələn, Azərbaycanda feysbukun ictimai əhəmiyyəti daha böyükdür. Bu platformada ictimai müzakirələr, diskussiyalar gedir, ictimai nəzarət funksiyası həyata keçirilir. Yutubun əhəmiyyəti tam başqa yöndədir. Vətəndaşlar video formada olan informasiyaları daha effektiv qəbul edə bilir. Ola bilsin ki, tiktokun uşaq və yeniyetmələr arasında populyarlığı müəyyən biznes dairələrinə faydalı xidmətləri çatdırmaqda kömək edir. Bu da normaldır. Bu platformaya birmənalı zərərli demək olmaz. Belə demək doğrudur ki, tiktokda uşaqlar üçün zərərli ola biləcək informasiyaların xüsusi çəkisi hədsiz çoxdur. Amma o demək deyil ki, bu platformanın üzərinə xətt çəkilə bilər. İstifadəçi özünün hansısa faydalı məhsulunu sata bilər və yaxud bir anda bu şəbəkədə məşhurlaşa bilər. Bunu heç kim onun əlindən ala bilməz. Yeganə məqam ondan ibarətdir ki, azyaşlıları qoruya bilək, çünki bu şəbəkədə uşaqlar üçün təhlükə mövcuddur".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ey hörmətli müəllim, hər imtahanda dərdin var

## Sertifikasiya prosesində o qədər çatışmazlıqlar olur ki, hansını deyək

**Ümumtəhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi keçirilir. İmtahan ölkənin 13 müxtəlif şəhərində 23 mərkəzdə təşkil olunub.**

Qaydaların tələblərinə müvafiq olaraq, test imtahanı ilə bağlı məlumat mayın 18-də iştirakçıların şəxsi kabinetlərinə göndərilib. Bütün ölkə üzrə iyunun 20-23-də 20 000-ə yaxın təhsilverən ibtidai sinif, iyunun 24-də isə 8500-dən çox (ümumilikdə 28 min 500 müəllim) təhsilverən Azərbaycan dili və ədəbiyyat fənni üzrə sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsinə cəlb olunacaq. Test imtahanı mərhələsində 120 dəqiqə müddətində təhsilverənlərin tədris etdiyi fənn üzrə ümumtəhsil proqramlarına, tədris metodikasına və təlim strategiyalarına aid 60 sual təqdim edilir. Hər düzgün cavab 1 balla qiymətləndirilir. Bu mərhələnin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və imtahan başa çatdıqdan dərhal sonra namizədə elan edilir. Test imtahanında azı 30 bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə keçmək hüququ qazanacaq. Nazirlər Kabinetinin 18 avqust 2022-ci il tarixli qərarına əsasən, dövlət ümumi təhsil müəssisələrinin təhsilverənlərinə sertifikatlaşdırmanın nəticəsinə uyğun olaraq tədris edilən dərs saatına görə test imtahanı mərhələsində 50 baldan yuxarı nəticə göstərənlərin vəzifə maaşları 35 faiz, keçid balını toplayan digər təhsilverənlərə isə 10 faiz aylıq əlavələr ediləcək. Ötən il sertifikatlaşdırmadan keçmiş 3 164 təhsilverənin vəzifə maaşına 35 faiz, 5 624 təhsilverənə isə 10 faiz əlavə ödənilir. Gələcəkdə motivasiya xarakterli digər addımlar da olacaq. Direktor və direktor müavinləri seçimində sertifikasiya balı nəzərə alınacaq. Eyni zamanda məktəbəsaslı metodist xidməti üçün sertifikasiyadan keçən müəllimlərə üstünlük veriləcək.

> "Təhsil sistemi planlaşdırılmanı tələb edir. Amma bizim Elm və Təhsil Nazirliyi bu istiqamətdə ciddi problemlər yaşayır"

Qeyd edək ki, yaşı 60-dan yuxarı olan 5 700-dən çox müəllim sertifikasiya imtahanında iştirakdan azaddır. Yaşı 60-dan yuxarı olan müəllimlər sertifikasiyada könüllü iştirak edə bilər. Lakin 60-ı adlamış müəllimlər bunda maraqlı deyil. Bu səbəbdən ki, keçid balı və ya daha yuxarı bal toplasalar, əmək haqlarına əlavələr ediləcək. Keçid balından aşağı səviyyəyə görə isə əməkhaqlarında heç bir dəyişiklik olmayacaq. Buna görə də boşuna stres yaşamaq istəmirlər. Sertifikasiya imtahanlarından narazılar da az deyil.

**Təhsil Xidmətləri Araşdırma və Təhlil Mərkəzinin rəhbəri Kamran Əsədov "Şərq"ə açıqlamasında sertifikasiya imtahanlarındakı çatışmazlıqlardan danışdı:**

- Təhsil sistemi planlaşdırılmanı tələb edir. Amma bizim Elm və Təhsil Nazirliyi bu istiqamətdə ciddi problemlər yaşayır.

Misal üçün: Sertifikasiya prosesi başlayanda elan etdilər ki, MİQ imtahanı Sertifikasiya imtahanına bərabər olacaq, olmadı. Proqnoz verilmişdi ki, ilk Sertifikasiyadan 5-10 faiz müəllim keçməyəcək, amma 11 min müəllimdən 2800 müəllim keçə bilmədi. Dedilər ki, yeni işə qəbul olunmuş müəllimlər 5 il sonra Sertifikasiyada iştirak edəcək, qaydalar dəyişdi, 3 il sonra iştirak etmələri qərara alındı. Dedilər ki, bütün müəllimlər iştirak edəcək, amma qanuna dəyişikliklər edildi, 60 yaşdan yuxarı olanlar üçün könüllülük prinsipi tətbiq edildi. 60 yaş və yuxarılara edilən dəyişikliklər iyun ayında keçiriləcək Sertifikasiyada iştirak edənlərə şamil olunmayacaqdı, amma imtahana 2 gün qalmış elan etdilər ki, bəs onlar iştirak etməyəcəklər. Siyahını uzatmaq olar. Amma tövsiyə edirəm ki, hər hansı bir fəaliyyəti həyata keçirməyi düşünəndə, onun planını hazırlayıb həyata keçirmək lazımdır.

*Qeyd edək ki, müəllimlərin sertifikasiya imtahanı ilə bağlı sosial şəbəkələrdə də iradlar bildirilir. Misal üçün;*

**Təranə Məmmədtağıyeva:** O vaxt inşanı belə plansız yaza bilməzdik. Mütləq plan tutulurdu. Günlük işin belə planını tutanda iş səliqəli gedir. Pərakəndəlik yorgunluqdur, nizamsızlıqdır.

**Ləman Fərmanova:** Haqlısınız. MİQ-çilərə haqsızlıqdı. Onlarda səhv düzü aparır, sertifikasiyada aparmır. Onlarda suallar nisbətən sadədi, MİQ-də çətin. Kurikulum suallarının sayı MİQ-də 20, sertifikasiyada 10-dur. Və illərlə işləyən müəllim üsyan edir...

**Miqibtidai Nurəliyev:** Yatıb səhər yeni qayda tətbiq edirlər, yəni bunların ipi ilə getmək olmaz.

**Aynur Khan:** Bizim təhsildən nizam gözləyirsiniz siz? Gözləməyin, olmayacaq...

**Məlahət Rzayeva**

# Mərhum baş redaktorun işi yarımçıq qalmayacaq

## Ancaq hələ kollektivdə sayta rəhbərliklə bağlı bir qərar yoxdur



**"Zülfüqar müəllimin vəfatı bizim üçün gözlənilməz oldu. Hazırda bütün kollektiv bunun sarsıntısı içərisindədir".**

**Bunu "Şərq"ə açıqlamasında "Moderator.az"ın redaktoru Seymur Əliyev saytın fəaliyyəti ilə bağlı danışarkən deyib.**

O vurğulayıb ki, Zülfüqar müəllimin başlatdığı işi yarımçıq qoymaq olmaz və bunu hökmən davam etdirməliyik: "Bu, ilk növbədə bir vəfa borcudur. Hazırda kollektivdə sayta rəhbərliklə bağlı bir qərar yoxdur. Yalnız birlikdə müzakirə etdikdən sonra qəti qərar veriləcək".

S.Əliyev əlavə edib ki, bu gün sayt ənənəvi şəkildə öz fəaliyyətini davam etdirir və cəmiyyətdə baş verən hadisələrə öz çevik münasibətini bildirir: "Hazırda saytın fəaliyyəti ilə bağlı heç bir problem yoxdur. Yəqin ki, rəhbərlikdə kimin təmsil edilməsindən asılı olmayaraq Zülfüqar müəllimin yeri dolmayacaq. Ümumiyyətlə, "Moderator.az"ın yeni uğurlarına nail olmaq və daha da irəli daşımaq bizim mənəvi borcumuzdur. Sayt əməkdaşları tərəfindən Zülfüqar müəllimə ediləcək ən gözəl jest və vida da bu olacaq".

*Qeyd edək ki, "Moderator.az"ın baş redaktoru Zülfüqar Hüseynzadənin ani vəfatı hamını heyrətləndirib. Təsisçinin ölümündən sonra saytın idarəsinin kimə veriləcəyi isə hələ də bəlli deyil".*

**Nihat Müzəffər**

# Sərhəddə və Xankəndi ətrafından açılan atəş...

## Törədilən təxribatların arxasında Rusiyanın durması gün kimi aydındır



**Ermənistanın təxribatları artmaqdadır. Kəlbəcər, Gədəbəy, Naxçıvan, həmçinin Ağdam və Şuşa istiqamətində bölmələrimiz müxtəlif çaplı atıcı silahlardan intensiv atəşə tutulmaqdadır. Ermənistan tərəfinin Azərbaycanla sərhədə qoşun cəmləməsi ilə bağlı xəbərlər yayılır.**

Bildirilir ki, sərhəddəki qüvvələr ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib. Ərazimizdəki qeyri-qanuni erməni silahlı dəstələri də Ağdam rayonu istiqamətində yerləşən mövqelərimizin qarşısında fortifikasiya (kəşfiyyat cihazı) qurğularını quraşdırmağa cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

**Politoloq Həsrət Rüstəmov bildirib ki, sərhəddə və Xankəndi ətrafından açılan atəşlərin, törədilən təxribatların arxasında Rusiyanın durması gün kimi aydındır. Ekspertin sözlərinə görə, həm Ermənistandakı rus hərbi kontingenti, həm də erməni ordusunda agent missiyasını icra edən yüksəkrütbəli hərbi heyət qeyri-sabitliyin əsas səbəbidir:** "Xankəndidəki "sülhməramlı" adı altında yerləşdirilmiş işğalçı rus ordusu da bölgədə gərginliyin qalmasına xidmət edir. Azərbaycan çox düzgün olaraq bütün atəş nöqtələrini vaxtında susdurur və təxribatlara artıqlaması ilə adekvat cavab verir. Bu cür sərt cavablar qarşı tərəfə "mövqelərimizdən əsla çəkilməyəcəyik" və "heç kimdən qorxmuruq" mesajlarını verir. Amma məsələnin köklü həlli yadelli hərbi kontingentin bölgədən birdəfəlik çıxarılması və Cənubi Qafqaza hər hansı kənar hərbçilərin yerləşdirilməməsinin üç ölkə arasında razılaşdırılmasından asılıdır".

**İsmayıl**



## Beyazıt Öztürk 5 ildən sonra qayıdır

**Uzun müddət maraqla izlənən "Beyaz show"nun yayım vaxtı bəlli olub.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Beyazıt Öztürkün aparıcılığını edəcəyi proqram yeni mövsümdə izləyicilərə təqdim olunacaq.

Bununla yanaşı Öztürk yarışma proqramında da aparıcılıq edəcək.

Veriliş "Tv8" kanalında yayımlanacaq.

*Qeyd edək ki, 1996-cı ildən yayıma başlayan "Beyaz show" 2018-ci ilədək davam etmişdi.*

## Günəşdən də isti planet kəşf olundu

Bu planet bir ulduzun ətrafında dövr edir



**NASA istiliyi Günəş planetinin hərarətinə çox yaxın, kiçik planetin kəşf edildiyini açıqlayıb.**

"Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, bu planet kosmosda 1 400 işıq ili uzaqlığındakı məsafədə bir ulduzun ətrafında dövr edir. Bu kateqoriyadan olan planetlər - cisimlər, digər planetlərlə ulduzlar arasında mövcud olan qəhvəyi rəngli "cücə" adlandırılır. Cisim ev sahibi ulduza o qədər yaxın dövr edir ki, istiliyi 8 min Kelvin - 7 min 727 santigrat dərəcəni aşır. Bu, atmosferdəki molekulları atomlarına ayıracaq qədər yüksək bir istilikdir. Alimlər iddia edir ki, qəhvəyi rəngli "cücələr" planetlərdən daha yüksək istiliyə malik olsalar da, Günəşin istilik dərəcəsinə çata bilməzlər. İsrailin "Weizmann" Elmi İnstitutunun astrofiziki Naama Hallakoun rəhbərliyi altında beynəlxalq alimlər qrupu kəşf edilən planetə WD0032-317B adını verib. Yeni kəşf haqqında "Nature Astronomy" dərgisində məqalə yayımlanıb. Alimlər heyətinin söylədiyinə görə, bu kəşf hədsiz isti, böyük kütləli ulduzların ətrafında dövr edən Yupiter planetini dövrələyən qaz hissəcikləri barədə daha dəqiq araşdırma aparılmasına yardımçı ola bilər.

**Məlahət**

## Çox uzun dırnaqların altında 32 cür mikrob olur



**Çox uzun dırnaqlar dəbdə olsa da, sağlamlıq üçün təhlükəlidir.**

"Medicina" xəbər verir ki, Amerika Universitetinin professoru Ceffri Kaplanın sözlərinə görə, uzun dırnaqların altı göbələk və bakteriyalar üçün çoxalma mənbəyidir.

"Dırnaq lövhəsi nə qədər uzun olsa, mikroorqanizmlər üçün bir o qədər çoxalmaq imkanı yaranır.

Tədqiqat zamanı belə dırnaqların altında 32 növ bakteriya və 28 növ göbələk aşkar edilib. Onların arasında hətta antibiotiklərə davamlı stafilokokk aureus da var.

Dırnaqlarınızın süni və ya təbii olmasının heç bir əhəmiyyəti yoxdur, onlar gel, akril və ya lak ilə örtülsə də, dırnaqlar uzundursa, onların altında çoxlu mikroorqanizmlərin olma ehtimalı çox yüksəkdir.

Əlləri yuma və ya hətta xüsusi fırça ilə dırnaqları təmizləmək köməyi ilə bunları zərərsizləşdirmək çətindir.

Dırnaqları qaşıdıqda, dişlədikdə, ağızda oynatdıqda, buruna saldıqda dırnaqların altındakı mikroblar orqanizmə daxil olaraq, müxtəlif xəstəliklərə səbəb olacaq.

Bundan əlavə, bu mikroorqanizmlər dırnaq infeksiyasına səbəb ola bilər ki, bu da dırnaq lövhələrini eybəcər hala salacaq.

## "Xilasedicilləri gözləyirik"

İtən qayıqdan paylaşım etdi



**Xəbər verdiyimiz kimi, Atlantik okeanında turistləri "Titanik" gəmisinin qəzaya uğradığı yerə aparan sualtı qayıq itib.**

Hadisədən sonra ABŞ-nin Boston Sahil Mühafizəsi tərəfindən axtarış-xilasetmə əməliyyatına başlanılıb. Bazar günü səhər itən qayığın 96 saatlıq oksigen ehtiyatının olduğu bildirilir.

"Qafqazinfo" bildirir ki, qayıqda olanlardan biri, irlandiyalı araşdırmaçı Rori Qolden öz feysbuk hesabında paylaşım edib və hazırda yaxşı olduğunu deyib.

"Mən yaxşıyam. Xahiş edirəm ki, qayığın göyərtəsində olanların adlarını soruşmayın. Onların kim olduğu barədə təxminlər etməyin. Sosial şəbəkələrdə son dərəcə yersiz bəzi şərhlər gördüm", - deyə araşdırmaçı qeyd edib.

Onun sözlərinə görə, bütün heyət hazırda xilasedicilərin gəlişini gözləyir. O, həmçinin əlavə edib ki, internetə çıxışları məhduddur. Qolden sualtı qayıqda olanların əhvalının yaxşı olduğunu vurğulayıb.

*Xatırladaq ki, sualtı qayığın axtarışları iyunun 19-u başlayıb. Sahil Mühafizə Xidmətinin məlumatına görə, qayıqda 5 nəfər var.*



# "Cəhənnəm bundan yaxşıdır"

Ukraynalı əsgərləri xədim edirlər



**Ruslar tərəfindən əsir alınmış ukraynalı əsgərlərin əsir düşərgəsində yaşadıqları qan dondurur. Rəsmi Moskva işgəncə faktlarını təkzib etməyə çalışsa da, əsirlikdən azad edilən ukraynalı 2 əsirin danışdıqları dəhşətlidir.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Rusiyanın Ukraynaya hərbi təcavüzü başlanandan bugünədək əsir alınmış ukraynalı əsgərlərə olmazın işgəncələr verilib. Əsirlikdən azad olunaraq xarici ölkələrdən birinə sığınmış ukraynalı 2 əsgər başlarına gətirilən dəhşətli işgəncələr barədə İngiltərədə yayımlanan "Daily Express" qəzetinə danışıb. Müharibə başladıqda birinin 24, digərinin 27 yaşı olub. Onlar da digər ukraynalılar kimi orduya yazılıb və düşmənə qarşı döyüşlərdə iştirak ediblər. Və Donetsk vilayətinin Mariupol şəhərində rus əsgərləri tərəfindən əsir alınıblar. Əsgərlər əsir düşərgəsində həyatlarının ən qorxunc, iyrənc günlərini yaşadıqlarını, ağır işgəncələrə məruz qaldıqlarını, özlərini əsl cəhənnəmdə hiss etdiklərini deyiblər. Qəzetin yazdığına görə, ukraynalı bu 2 əsgər əsirlikdən azad olunsalar da başlarına gətirilən dəhşətli hadisələri unuda bilmirlər. Əsirlikdəki əsgərlər ölmür, öldürülmür, amma ölmək, onlara yaşadılan işgəncələrdən daha asan və yüngüldür. Əsgərlərin dediyinə görə, ruslar çox içki qəbul edir, sərxoş olur və sərxoş vəziyyətlərində də ukraynalı əsgərlərlə vəhşicəsinə davranırlar. Əsgərlərdən biri qəzetə müsahibəsində "sərxoş rus əsgərləri ukraynalı əsgərləri xədim edir. Və bunu cib bıçağı ilə etməyə çalışaraq əsirlərə həyatları boyunca unuda bilməyəcəkləri işgəncə, qorxu yaşadırlar", söyləyib. Onlardan biri 1 il, digəri isə 3 ay rus əsirliyində qalıb. Əsirlərin dəyişdirilməsi nəticəsində ölkələrinə təhvil veriliblər. Ölümdən də betər dəhşətdən xilas olan əsirlər psixoloji durumlarının normallaşması üçün psixoloji seanslara aparılır. Onlarla məşğul olmuş psixoterapevt, 41 yaşlı Anjelika Yatsenko, iki dostun yaşadığı dəhşət haqqında "cəhənnəmdən də betər, cəhənnəm bundan yaxşıdır" ifadələrini söyləyib. Psixoterapevt deyib ki, əsirlikdən azad olunanlar müalicə alsalar da, yenə gərginlik içindədirlər və hətta sui-qəsdə əl atırlar. "Onlarla ilk seansdan sonra dəhşətə gəldim və ayaqyoluna gedib orada hıçqıra-hıçqıra ağladım" deyən psixoterapevt onların danışdıqlarını unuda bilmədiyini söyləyib.

**Məlahət**



# Qocalma 3-6 il ertələnir

Gündüz yuxusu beyin üçün çox faydalıdır



**London Universiteti Kollecinin tədqiqatçıları deyirlər ki, müntəzəm olaraq yatmaq üçün vaxt tapmaq beynimiz üçün faydalıdır və onun daha uzun müddət böyük qalmasına kömək edir.**

Məlum olub ki, gün ərzində yatanların beyni 15 kub santimetr böyükdür; Bu o deməkdir ki, qocalma 3-6 il gecikir.

Ancaq alimlər yuxu vaxtının yarım saatdan az saxlanmasını vacib hesab edirlər.

Araşdırmaya rəhbərlik edən alimlərdən biri Dr. Viktoriya Qarfild nəticələrin insanı həyəcanlandırdığını açıqlayıb.

İş həyatı əksər insanlar üçün belə bir fürsətin yaradılmasına imkan verməsə də, gün ərzində yatmağın arıqlamaqdan və ya idman etməkdən daha asan bir üsul olduğu bildirilir.

Gün ərzində yatmaq körpələrdə beyinin inkişafı üçün çox vacibdir, ona görə də yaşlandıqca bu tərcübədən imtina edilir.

Daha çox təqaüdə çıxan zaman yuxular geri qayıdır.

Yaşlandıqca beyin təbii olaraq kiçilir, lakin yuxunun altsheymer kimi xəstəliklərin qarşısını ala biləcəyini öyrənmək üçün daha çox araşdırmaya ehtiyac var.

Tədqiqatçıların fikrincə, zəif yuxu zamanla beyin və beyin hüceyrələrinə zərər verir.

Britaniya Nevroloji Assosiasiyasının və Edinburq Universitetinin professoru Tara Spiers-Jones araşdırmanın nəticələrini maraqlı hesab edir və "Həftə sonları qısa yuxuları sevirəm; bu araşdırma məni tənbəl hiss etməməyə, hətta beynimi qoruduğumu düşünməyə təşviq edəcək", - deyə bildirib.

**Turan**

## Dəhşətli mənzərə

İnsanların 3,6 faizi doğulduğu ölkədən kənarda yaşayır



**Birləşmiş Millətlər Təşkilatının (BMT) İnsan Hüquqları üzrə Ali Komissarlığının son hesabatına görə, dünya əhalisinin təxminən 3,6 faizi doğulduğu ölkədən və ya regiondan kənarda yaşamalı olur.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, qlobal miqrasiya, qaçqın və sığınacaq məlumatları 20 iyun Ümumdünya Qaçqınlar Günü üçün tərtib edilib.

Bəşər tarixinin dəyişməz problemlərindən biri olan miqrasiya fenomeni müxtəlif səbəblər üzündən qlobal hadisə olmaqla yanaşı, beynəlxalq qurumların və milli dövlətlərin həll edə bilmədiyi, dünyanın hər yerində hiss olunan böyük problemə çevrilib.

Müharibələr, dondurulmuş münaqişələr, gəlir bərabərsizliyi və yanlış idarəçilik kimi miqrasiyanın məlum səbəblərinə qlobal istiləşmə və ekoloji fəlakətlərin də əlavə olunması ilə coğrafiyasını tərk etmək məcburiyyətində qalan insanların sayı görünməmiş səviyyəyə çatıb.

**Turan**

## Pişikdən keçən parazit insanın xasiyyətini dəyişir



**Toksoplazma ilə yoluxmuş kişilər və qadınlar yoluxmayanlara nisbətən daha sağlam və cazibədar görünürlər.**

"Medicina" xəbər verir ki, toxoplasma gondii parazitinin əsas sahibi pişikdir, lakin digər heyvanlar, eləcə də parazitin aralıq sahibinə çevrilən insanlar yoluxa bilər. Toksoplazmanın xroniki daşıyıcılarının dünya əhalisinin 50% -ə qədəri olduğu deyilir.

Tədqiqatlar göstərir ki, parazit sinir sisteminin toxumalarına nüfuz edərək, ev sahibinin davranışına, o cümlədən şəxsiyyət xüsusiyyətlərinə təsir etmək qabiliyyətinə malikdir.

Bundan əlavə, Toksoplazma infeksiyasının insanlarda şizofreniya da daxil olmaqla psixi və nevroloji xəstəliklərin inkişafının əsasını təşkil edə biləcəyinə dair şübhələr var.

Turku Universitetindən (Finlandiya) bioloq Xavyer Borraz-Leonun rəhbərlik etdiyi beynəlxalq tədqiqatçılar qrupu Toxoplasma gondii ilə əlaqəli daha bir qəribə fenomen təsdiqləyib.

Məlum olub ki, yoluxmuş iştirakçıların, xüsusən də kişilərin, yoluxmayanlara nisbətən simmetrik üzləri daha çoxdur. Məlumdur ki, üz cizgilərinin simmetriyası yaxşı fiziki sağlamlıq və sahibinin yaxşı genlər barədə siqnal verir.

Bundan əlavə, yoluxmuş qadınlar orta hesabla daha arıq idilər, özlərini daha cəlbedici hesab edirdilər və yoluxmamış qadınlardan daha çox cinsi partnyorlara sahib idilər.

Elm adamları, toksoplazmanın bir növ insanın endokrin sisteminə təsir göstərə biləcəyini, hormonların səviyyəsini dəyişdirə biləcəyini və nəticədə xarici görünüşünə müsbət təsir etdiyini irəli sürüblər.